Sarı Aşığın müşahidə qabiliyyəti çox güclüdür. O, təkcə özünü yox, bütün məhəbbət aşiqlərini düşünür. Aşiqləri bircə mühit sıxmır, aşiqin biri həssas, o biri laqeyd olanda da eşqin mənasını duyan və onu yüksək qiymətləndirən insan vicdan əzabı çəkir. Sarı Aşıq belələrinin də dərdinə şərik olur.

Bir gün Sarı Aşıq harasa gedirmiş. Görür ki, bir oğlanla bir qız bir yerdədirlər. Oğlan laqeyd bir insandır, ağacla qanqal budayıb yeyir, qız isə həsrətlə ona baxır. Qız gözləyir ki, bu, nə zamansa dönüb onunla söhbət edəcək, eşqinə cavab verəcək, yanan ürəyinə su səpəcək. Qızın bu tələşı, oğlanın laqeydliyi həssas qəlbli aşığı yerindən tərpədir, qəlbini riqqətə gətirir. Həmin təsir nəticəsində aşağıdakı yurdlu-cinaslı bayatısı yaranır:

Mən aşıq, bu damaqda,
Bu kefdə, bu damaqda.

[1] Xalqın söz mirvariləri (toplayanı və tərtib edəni Sədnik Paşayev), Azərnəşr, 1999. səh. 71-72

Maya nər sevdasında,
Nər qanqal budamaqda.

Sarı Aşıq öz halına da yanır ki, gör mən nə çəkirəm, nə kefdə, nə damaqdayam. Öz sevgilisi ilə bir yerdə olan nə kefdə, damaqdadır; Nər sevdasında olan mayanı unudub, qanqal budayıb yeyir. Aşığı incidən bu təzaddır; biri yar həsrətindədir, o birisi bu eşqə layiq deyil. Çünki biganədir. Daha doğrusu, qanqal budayandır, qanqal müştərisidir. Eşqə layiq adamlar isə Sarı Aşıq kimi hicran əzabı çəkir, yar həsrəti onu boğub öldürür.

Bu həm də Sarı Aşığın hər şeyi qabaqcadan duyması, görməsi, seçə bilməsi, qabiliyyətinin olduğunu da təsdiq etməkdədir. Dastanda, Sarı Aşıqla bağlı çoxsaylı rəvayətlərdə aşığı dönə-dönə sınağa çəkən ərgən qızlar olur. Hər dəfə də sınaqlardan qalib çıxır və kənd qızlarının minnətdarlığı ilə qurtarır. Bir sözlə, aşıq hər yerdə dərin ağıl, bilik müşahidə sahibi kimi qiymətləndirilir. Şəkilcə fərqlənən bu tapmaca-müəmma da Sarı Aşığa şöhrət gətirir.

Çox söhbətdən sonra qızlardan biri dedi:

- A bacılar, pencər yığan qızı görürsüz. Elə bil gəmisi dəryada qərq olub. Yəqin onun

qəriblikdə sevgilisi var. Qarnı yanmış gör nə fikirlidir ha?

Yəqin ağlayır.

Bir qız dedi:

- Deyirlər, Aşıq haqq aşığıdır, ürəklərdə olan hər sözü bilir. Aşıq desin görək o pencər yığan qızın ürəyindən nə keçir

Aşıq deyir:

- Baş üstə, deyim:

Mən aşıq, dərmə - dərmə,
Dərməni dərmə - dərmə,
Əkilməmiş bostandan,
Tikilməmiş çardaxdan,
Doğulmamış bir oğlan,
Çağırır dərmə-dərmə.

Qızlar soruşdular:

- İndi açıq de.

Aşıq deyir:

- Qızın könlündən keçir. "Kaş bir oğlan olaydı, burada bostan əkəydi. Mənim də bir oğlum olaydı, bostanın qırağında bir qəlbi çardax tikəydi. Çardaxda oturub bostanı qoruyaydı. Bostana girən olanda oğlum çağırıb deyəydi: Bostana girən, yemişləri dərmə - dərmə".

Qızlar pencər yığan qızın yanına gedib and verib dedilər: - Ay qız, niyə fikirli idin? Fikrindən nə keçirdi.

Qız fikrindən keçənləri, aşıq söylədiyi kimi onlara danışdı. Baxdılar ki, hər bir söz Aşığa əyandı".

Sarı Aşığı təkcə gəlinlər, qızlar, adicə el adamları deyil, onu müdriklər, alimanə insanlar dönə-dönə imtahana çəkirlər, sınaqdan keçirirlər. Hər şeyin qabaqcadan ona əyan olduğunu yoxlamağa, sınaqdan keçirməyə çalışırlar. Belə bir istedadın onda olduğunu gördükdə Sarı Aşığa əhsən deyirlər.

Bir dəfə belə bir hadisə olur. Üzərinə müqəddəslərin adı yazılmış yazılı daşı o biri üzünə çevirib Sarı Aşıqdan soruşurlar: - Aşıq daşın o biri üzündə nə yazılıb? – Bunu bizə söyləsən sənə deməyə sözümüz qalmaz. Sarı Aşıq əlini daşın üstə qoyub deyir:

Mən aşiqəm, bu daşa,
Bu kirpiyə, bu qaşa,
Allah, Məhəmməd, Ya Əli,
Yazılıbdı bu daşa.

Sarı Aşıq lirik şairdir. O, yaratdığı kiçik və məzmunlu məhəbbət təranələrində həsrət, hicran, fədakarlıq və vüsaldan bəhs edir. Sevgilisinin uğrunda çəkdiyi iztirabları, keçirdiyi həyəcanları, vüsaldan duyduğu sevinci canlandırır. Demək istədiyi hər şeyi aydın, sadə və şirin deyir. O, sadə sözləri elə bacarıqla işlədir, bayatısını elə məharətlə qurur ki, adam bildiyi, yüz dəfələrlə eşitmiş olduğu fikirləri də indi birinci dəfə eşidirmiş kimi dinləmək istəyir. Məsələn: "Vəfalı dost tək-tək ələ düşər", "Özünə belə dost axtar" fikrini çox təkrar etmişlər. Təkrar olunmuş bu fikri aşıq belə ifadə edir:

Aşiqəm, bağda dara,
Zülfünü bağda dara.
Vəfalı bir dost üçün,
Rumu gəz, Bağdad ara.

Bu bayatılarda təbiət və cəmiyyət hadisələri yığcam, dörd kiçik misrada elə bacarıqla verilir ki, müəyyən hadisə və məsələ haqqında oxucuda bitkin bir təsəvvür yaranır. Bəzən böyük bir romanın, bir hekayənin məzmunu vermiş kimi olur.

Buxarı qurum saxlar,
Od yanar, qurum saxlar.

Aşiq geyən libası,
Geyməsin qurumsaxlar.

Aşığın bayatılarında klassik ədəbiyyatın təsiri açıq hiss olunur. Bayatılarda kitab ifadələri çox işləndiyi kimi, bəzən məzmununda da təriqət və dini təsirlər nəzərə çarpır. Bu cəhətdən aşağıdakı bayatı səciyyəvidir.

Bu aşiq, zində deyil,
Əqli özündə deyil,
Kim deyir haqq camalı,
Yaxşı üzündə deyil.

Sarı Aşıq günəşin təcallasını Yaxşının nurlu sifətində görür.

Aşığın bayatılarında məişətdən gələn ifadələr daha çoxdur. Onun istedadının gücü də burasındadır. Məsələn:

Zülfün suda mar kimi,
Oynar su damar kimi.
Sızıldadır aşiqi,
Yağa su damar kimi.

Burada yalnız mar kəlməsi nisbətən xalq ifadəsinə yabançıdır. Lakin yağa su damması ilə aşığın sızıldamasının müqayisəsi həm qüvvətli, həm də həyatidir.

Aşıq sadə sözlərlə elə bacarıqlı təzadlar yaradır ki, oxucu heyrət etməyə bilmir.

Bu aşiq, oda yandı,
Od tutdu oda yandı.
Yar çəkdi mən yeridim,
Mən çəkdim o, dayandı.

Həmin cinaslı bayatını başqa bir məzmunda da dilə gətirir:

Mən aşıq, dağda yandı,
Şamaman tağda yandı.
Arxamı dağa verdim,
Alışdı dağ da yandı.

Bir-birindən təzadlı, yeni təşbihlərlə bəzənmiş, bənzərsiz, oxşar, lakin məzmunca çox fərqli cinaslı bayatılar yaradır.

Mən aşiqəm, yandırar,
Ocaq qordu, yandırar,
Eşqimdən od almışam,
Odum səni yandırar.

Yaxşıynan əlaqədar bir-birindən fərqli, bənzərsiz, yeni təşbihlərlə bəzənmiş elə cinaslı bayatılar yaradır ki, insan öz heyrətini gizlədə bilmir.

Buxarını az qala,
Odun gətir, az qala,
Bir ox atdı Yaxşı yar,
Öldürmüşdü az qala.

Nə qədər Yaxşının yolunda əzab, əziyyət, iztirab çəksədə Yaxşıya bildirir ki, sən çağırsan, son nəfəsdə olsam belə yenə gəlləm.

Mən aşiq, yenə gəlləm,
Ay aşıq, yenə gəlləm,
Bilsəm son nəfəsdəyəm,
Çağırsan yenə gəlləm.

Sarı Aşıq Azərbaycan söz xəzinəsinə, söz lüğətinə, söz külçəsinə elə dərindən bələddir ki, oradan cinaslar seçməkdə, heç bir çətinlik çəkmir. Əvvəlki cinaslı bayatının davamı kimi səslənən aşağıdakı bayatıya xüsusi diqqət yetirək:

Aşığam, su dayandı,
Sel gəldi, su dayandı.

Özümü suya vurdum,
Odumdan su da yandı.

Və yaxud başqa bir bayatı nümunəsinə nəzər yetirək:

Mən aşiq, Güləbirdə,
Yol gedir Güləbirdə.
Yaxşı yar qarşı gələ,
Üzümə gülə bir də.

Sarı Aşığın bayatıları çoxsaylı bayatılar içərisindən boy verib görünür. Sayılıb, seçilir, tanınır. Onun məna yükü, fikir əlvanlığı insanı hər dəfə heyrətdə buraxır. İnsan can atır ki, Sarı Aşığın bayatılarını çox eşitsin, çox dinləsin. Onun nadir incilərini tapıb əldə etsin.

Sarı Aşığın bayatıları belə sadə, aydın və dərin məzmunlu olduğu üçün xalq tərəfindən sevilib ağızdan-ağıza, nəsildən-nəsilə keçərək əsrimizə qədər yaşamışdır.

Məlumdur ki, XVII əsrdə yaşamış Sarı Aşığın xalq şeirimizin inkişafında mühüm rolu olmuşdur. O, bayatı yaradıcısı kimi böyük şöhrət tapmışdır. Bu gün xalq içərisində Sarı Aşığın adı ilə bağlı yüzlərlə bayatı yaşamaqdadır. Onların bir çoxunda Aşığın acılı-şirinli həyatının müəyyən anları, bəlalı sevgisi yüksək bədii şəkildə öz əksini tapmışdır. Sarı Aşığın məhəbbəti xalq içərisində geniş yayılmışdır. Məhz onun həyatı ilə bağlı müstəqil dastanın

yaranması tamamilə təbiidir. Bu baxımdan "Yaxşı və Aşıq" dastanı folklorumuzda yeni hadisə kimi qiymətləndirilməlidir. Lakin etiraf etməliyik ki, Lələnin "Yaxşı-Yaman" dastanı formalaşmış və klassik dastan nümunəsi kimi səslənir. Lakin Sarı Aşığın "Aşiq və Yaxşı" dastanı hələ də özünün təkamülünü yaşamaqdadır. Bizə məlum olan üç bayatılı dastanımız var: "Arzu-Qəmbər", "Yaxşı-Yaman" və "Aşiq və Yaxşı". Bu dastanların üçü də dağ kultu ilə bağlıdır. "Yaxşı-Yaman" dastanının qəhrəmanı Lələ təkrar-təkrar deyir: "Yaranmışam daşdan mən". "Arzu-Qəmbər" dastanında Bakı dialektində Qəmbərin mənası daş deməkdir. Sarı Aşıq öz ustadını yamsılayaraq tez-tez deyir:

Kiprikdən mən, qaşdan mən,
Yemərəm hər aşdan mən,
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

Əlbəttə, Sarı Aşıq özünün tək və yetim olmasına işarə edərək özünün daşdan yarandığını, qohumsuz, əqrəbasız olduğuna işarə edir. Biz bunu "Yaxşı-Yaman" dastanında olduğu kimi Lələ ilə müqayisə edə bilmərik. Doğrudan da, Lələ daşdan yaranmışdır. Sarı Aşıq isə özünü məcazi mənada daşdan yaranmış hesab edir.

Əhliman Axundovun tərtib etdiyi "Sarı Aşığın bayatıları" kitabının sonunda bir neçə qoşma verilmişdir. Bizə görə bu ya başqaları tərəfindən Sarı Aşığa həsr edilmiş qoşmalardır, yaxud da Sarı Aşıq gəncliyində bayatılar düzüb qoşarkən tənburdan və ya cürə sazdan, ömrünün kamilləşmiş dövrün də isə sazdan istifadə etmiş, zəngin bayatı yaradıcılığı ilə yanaşı tək-tək qoşmalar da yaratmışdır. "A Yaxşı" qoşmasından iki bənd nümunə:

Şikar edib tutdum bir şux tərlanı,
Sən etdin ağlımı zail, a Yaxşı.
Səni sevən keçər canı-sərindən,
Olar camalına mail, a Yaxşı.

Məni sana aşiq etdi yaradan,
Səg rəqibi haqq götürsün aradan,
İstəyirsən xəbər tutgil Saradan,
Yollarında mənəm sail, a Yaxşı.[1]

Sarı Aşıq yenə də Lələ kimi Yaman əlindən dad çəkir və deyir:

[1] "Sarı Aşıq". (toplayanı və tərtib edəni Əhliman Axundov). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı. 1966. səh. 80

Yamanın Yamandır səsi,
Dad olar, eyləmə bəhsi,
Xəmiri çox soyuqdur,
Yapsan küt gedər kündəsi.

Sarı Aşıq yamanları lənətləyir, insanları özü kimi doğru olmağa, quyu qazmamağa çağırır.

Sarı Aşığın ədəbi irsini tam toplayıb əldə etmədən onun qoşma yaradıcılığı haqqında saz götürüb, el, elatı gəzməsindən məclislər keçirməsindən söhbət açmaq olmaz. Bizim vəzifəmiz Sarı Aşığın bitib tükənməyən ədəbi irsini səbrlə toplayıb üzə çıxarmaqdan və tədqiqata cəlb etməkdən ibarətdir.

Akademik Mirzə İbrahimov bütün bunları nəzərə alaraq yazır: "Aşıq poeziyamızın bir çox məsələlərinin aydınlaşmamış qaldığını Sarı Aşığın həyatı və yaradıcılığı haqqındakı məlumatın naqisliyi aydın göstərir".[1]

Cəsarətlə demək olar ki, Sarı Aşığın cinaslı bayatıları, bağlama-bayatıları haqqında bu və ya digər şəkildə fikir və mülahizələr söylənilmişdir. Lakin Sarı Aşığın həyatı və şeirləri ilə bağlı "Yaxşı və Aşiq" dastanı tam araşdırılmamışdır.

II FƏSİL

SARI AŞIĞIN BAYATI ZİRVƏSİ

[1] Mirzə İbrahimov. Aşıq poeziyasında realizm. Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, Bakı, 1966. səh. 37

XVII əsrin nəhəng simalarından olan Sarı Aşığın bayatı yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi bir mərhələ təşkil edir. Sarı Aşıqdan əvvəl və sonra yaşayıb-yaratmış şifahi və yazılı ədəbiyyat nümayəndələrindən bayatı yaradıcılığında heç biri onun fəth etdiyi zirvəyə ucala bilməmişdir. Sarı Aşıq uzun və mürəkkəb bir yaradıcılıq yolu keçmişdir. Sarı Aşığın yaradıcılığı olduqca zəngin və çoxcəhətlidir. Onun yaradıcılığına ənənəvi bayatılar, cinaslı bayatılar bağlama-bayatılar, bayatı-deyişmələr, bayatılı rəvayətlər, dastan və hekayətlər daxildir.

Azərbaycan ədəbiyyatı tarixində iz qoyub getmiş, mükəmməl yaradıcılıq ənənələri olan sənətkarlardan biri də Sarı Aşıqdır. Azərbaycan xalq bayatılarının inkişafı tarixində, bu janrın poetik imkanlarının açılmasında, ədəbi növlər içərisində onun misilsiz şöhrət qazanmasında Sarı Aşığın xidmətləri böyükdür. O, özünün yaradıcılığı timsalında sübut etmişdir ki, yeddi hecalı, dörd misralı bayatıda böyük fikirlər, hisslər ifadə etmək, yaddaqalan bədii lövhələr yaratmaq mümkündür.

Biz Sarı Aşıqdan əvvəl yazılı və şifahi ədəbiyyatımızda yazıb-yaradan sənətkarların, o cümlədən Ş.İ.Xətainin, Dirili Qurbaninin, M.Əma-

ninin, Tufarqanlı Abbasın şeirləri içərisində də bayatı nümunələrinə rast gəlirik, Ş.İ.Xətainin (XVI əsr) on bayatısı çap olunmuşdur. Biz isə onun xalqın dilində yaşayan bir bayatısını nümunə veririk:

Xətai can, gül azar,
Bülbül eylər, gülə zar.
Taclı yar seyrə çıxıb,
Gül içində gül azar.

Dirili Qurbaninin (XVI əsr) poeziyasında da ara-sıra bayatı nümunələrinə rast gəlmək mümkündür:

Qurbanı, çaldı məni,
Odlara saldı məni.
Qoymadı murad alam,
Talx ilan çaldı məni.

Tufarqanlı Abbas (XVII əsr) təcnis və cığalı təcnis şeir formalarına meyl göstərdiyindən bayatı yaradıcılığına, xüsusilə cinaslı-bayatılara daha böyük əhəmiyyət vermişdir. Məsələn:

Mən aşığam, Gülgəzə,
Gül axtara, gül gəzə.
Abbas bir gül göndərdi,

Nişanlısı Gülgəzə.

Və yaxud:

Aşiqəm, Gülgəzə,
Sona gərək göl gəzə,
Qoy, bağı bülbül gəzsin,
Ayağı yox gül gəzə.

Etiraf etmək lazımdır ki, bayatı yaratmaqda Sarı Aşıq sələflərindən çox irəli getmişdir. Onun bayatıları öz məna, məzmun və forma gözəlliyi ilə seçilir. O, bayatını kiçik bir janr kimi deyil, böyük imkanlara malik şeir forması kimi qiymətləndirir. Hər birini məqsəd və ideyasına uyğun biçimləndirir, bir-birindən gözəl, bitkin sənət inciləri yaradır.

Bayatı janrının adını çəkəndə dərhal göz önündə Sarı Aşıq dayanır. Adama elə gəlir ki, Sarı Aşıq bütövlükdə bayatı yaradıcılığının varisidir. Bayatı yaradıcılığında çoxlarının adı ya tamamilə unudulmuş, yaxud da unudulmaq üzrədir. Bunun əksinə olaraq Sarı Aşıq bu sahədə öz təsirini və gücünü daha çox hiss etdirir.

Xalq poeziyasında özünə əbədi və ölməz abidə qoymuş Sarı Aşığın ecazkar sənətinin sirləri açıldıqca, biz onun böyüklüyünü daha aydın görürük.

Bütün bu dəlillər onu göstərir ki, ədəbiyyatda Sarı Aşıq ənənələri elə-belə, birdən-birə yaranmamışdır, bu ənənələrin yüz illər boyu baş alıb gələn çox möhkəm əsasları vardır. Lakin bununla belə, etiraf etmək lazımdır ki, bayatı yaratmaqda Sarı Aşıq sələflərindən çox irəli getmişdir. Onun bayatıları öz məna, məzmun və forma gözəlliyi ilə seçilir. O, bayatını kiçik bir poetik janr kimi deyil, böyük imkanlara malik şeir forması kimi dəyərləndirə bilmiş, ən dərin fikirləri, ən incə mətləbləri lakonik şəkildə - cəmi dörd misranın çevrəsində çatdırmağı bacarmışdır.

Yazılı və şifahi poeziyanın başqa janrları ilə müqayisədə demək olar ki, bayatı xalq məişətinə daha çox yaxındır. Bir qədər obrazlı desək, bayatı xalqın bağrının başından qopmuşdur. Məhz buna görə də belə kütləvi poeziya xəzinəsi daxilində "əriməmək", fərdi mövqe qazanmaq olduqca çətin bir məsələdir. Sarı Aşıq bu zəngin xəzinə daxilində, nəinki itib-batmamış, hətta o, öz istedadının qüdrəti ilə həmin sahədə xüsusi mövqe qazana bilmişdir. Bax, Sarı Aşığın bir sənətkar kimi böyüklüyü bundadır.

Sarı Aşığın Azərbaycan ədəbiyyatındakı rol və mövqeyini yalnız XIX əsr aşıq şeirimizin görkəmli nümayəndəsi Aşıq Ələsgərlə müqayisə

etmək mümkündür. Sarı Aşıq Azərbaycan ədəbiyyatının bayatı, Aşıq Ələsgər isə qoşma qanadıdır.

Neçə-neçə sənətkar Sarı Aşıqdan sonra sənət meydanına gəlmiş: Xəstə Qasım, M.V.Vidadi, M.P.Vaqif, Kazım ağa Salik, Q.b.Zakir, Aşıq Həmayıl, Aşıq Pəri, Məhəmməd bəy Aşiq, Aşıq Bəsti və başqaları onun bayatı yaradıcılığına xüsusi maraq göstərmişlər. Yaxşıya olan ülvi məhəbbətini və istəyini yüksək qiymətləndirmişlər.

Sarı Aşıq özü də bunu qabaqcadan bilirdi ki, "eşqdən cünun olan"lar dərdini onda tapacaqlar. Çünki o, dərdimməndir, dərdi də dərdimməndə deyərlər.

Mən aşıq, dərdi məndə,
Hər dərdin, dərdimməndə.
Eşqdən cünun olanın,
Tapılar dərdi məndə.

Sarı Aşığın qəlbini dərindən oxuyan, duyan Q.b.Zakir bir bayatısında belə deyir:

Gəldi bir yaxşı suvar,
Gir bağa, yaxşı suvar.
Aləmin malı, mülkü,

Aşiqin Yaxşısı var.[1]

Bayatı Q.b.Zakirə məxsus olsa da, burada Sarı Aşığın nəfəsi, amalı yaşayır. "Aləmin malı, mülkü var". Amma Sarı aşığın bircə Yaxşısı. Q.b.Zakir də bu bayatıda Sarı Aşığın öz eşqindən dönməzliyini, yar yolunda mətinliyini ifadə etmişdir. Məhəmməd bəy Aşiq də Sarı Aşığı Yaxşısız təsəvvürünə gətirə bilmir. Sarı Aşıqla Yaxşının eşq macərası sonralar dillər əzbəri olmuş, çoxları bu eşqə həsəd aparmışlar. Çoxları özünü Aşığa, sevgilisini də Yaxşıya bənzətmişlər. Bunlardan biri də Məhəmməd bəy Aşiqdir:

Qarşıda yaxşı Pəri,
Tərlanın yaxşı pəri.
Mən aşiqdən yaxşıyam,
Yaxşıdan, yaxşı Pəri.

Sarı Aşığın yaratdığı qafiyələr öz dövründə və özündən sonrakı aşıq ədəbiyyatımızda təcnis yaradıcılığının inkişafında mühüm rol oynamışdır.

"Məlumdur ki, Sarı Aşıq bayatı ustasıdır. Bu saat onun adı ilə bağlı olan qəbir də, kümbəz də zaman keçdikcə yer üzündən silinib gedəcək,

[1] Qasım bəy Zakir. Əsərləri, Azərbaycan EA Nəşriyyatı, Bakı, 1964. səh. 522

lakin xalq şeirimizin ən gözəl inciləri olan Sarı Aşıq bayatıları ürəklərdən silinməyəcək, dillərdən düşməyəcəkdir".[1] Sarı Aşığın bayatıları xalqımızın məişətinə, psixologiyasına uyğun tərzdə yaradılmışdır. Onun bayatıları bənzərsiz şəkildə düzümlənmiş, nadir xalq inciləridir. Sarı Aşığın bayatıları ümumxalq xəzinəsi içərisində bir inci kimi seçilir, tanınır. Sarı Aşığa məxsus olduğu dərhal biruzə verir. Sarı Aşıq yalnız geniş müşahidələrinə arxalanmır. O, həmçinin elmi kitablara, dini ayinlərə bələd bir şəxsiyyətdir. Ona görə də o, hansı mövzuya müraciət edirsə onun bədii həllini hər kəsdən güclü bir şəkildə həll etməyi bacarır. "Arzu-Qəmbər", "Yaxşı-Yaman" dastanlarında olduğu kimi, Sarı Aşığın da bayatıları müəyyən hadisəyə, süjet və epizoda bağlı olduğundan özünü mühafizə edib, saxlaya bilir. Məsələn:

Aşıq, minayə dəyər,
Xalın Minayə dəyər.
Ay var bir günə dəyməz,
Gün var min aya dəyər.

[1] M.H.Təhmasib. Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı, "Elm" nəşriyyatı, 1972, səh. 227.

Birinci misrada bayatıya hazırlıq verilir. İkinci misrada qarşıdakı gözəlin xalının minayə (Mina dağına) bərabər olduğuna işarə edilir. Üçüncü, dördüncü misralarda bayatının mahiyyəti açılır. Elə ay var ki, bir günə bərabər tutmaq olmaz. Lakin ömrün elə günü var ki, o min aya bərabər tutula bilər. Bu müqayisələr, təzadlı təşbihlər Sarı Aşığın bayatılarını bədii cəhətdən ziynətləndirir. Onu ölməz bir abidəyə çevirir.

Sarı Aşığın deyim tərzi, yaradıcılığındakı bədii boyalar onun bayatılarını yazılı və şifahi xalq poeziyasındakı bayatılardan tamamilə fərqləndirir. Hər kəs onun bayatılarını oxuduqda və dinlədikdə bu qənaətə gəlir ki, mən belə yazıb-yarada bilmərəm. Məsələn:

Mən aşiq üz qanadı,
Tərlanın üz qanadı.
Meh əsdi tel dağıldı,
Tel dəydi üz qanadı.

Nə qədər zərif, nə qədər incə ifadələrlə işlənmiş bu sənət incisi hər kəsi heyrətdə buraxır. Sarı Aşığın sənətkarlığı-sənətkar ucalığı cinaslı bayatılarda və bağlama bayatılarda özünü daha bariz şəkildə göstərməkdədir.

a). Sarı Aşığın cinaslı bayatıları. XVII əsrdə Sarı Aşıq cinas qafiyəli bayatıların klassik nümunələrini yaratmış, heca vəznli xalq şerimizi zənginləşdirmiş, onu ən gözəl cinaslı bayatılara qovuşdurmuşdur:

Mən aşiq, baltasına,
Elə vur, balta sına.
Yaxşının ağ əlləri,
Batıbdı bal tasına.

XVII əsrin nəhəng simalarından olan Sarı Aşığın bayatı yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi bir mərhələ təşkil edir. Sarı Aşığın sələflərindən və xələflərindən heç biri bayatı yaradıcılığında onun fəth etdiyi zirvəyə yüksələ bilməmişdir.

Sarı Aşıq bayatı yaradıcılığının şahıdır, padişahıdır, tacidardır.

Sarı Aşığın yaratdığı cinaslı bayatılar onun qeyri-adi istedada malik bir sənətkar olduğunu təsdiq etməkdədir. Onun cinaslı bayatıları forma və məzmun gözəlliyi ilə seçilir. Bunlardan biri digərini üstələyə bilmir, əksinə, forma məzmu-

nunu, məzmun da formanı tamamlayır, onu bitkinləşdirir.[1]

Tədqiqatçılar həmişə, bir qayda olaraq, Sarı Aşığın bayatılarını Yaxşı ilə əlaqələndirməyə çalışırlar. Sarı Aşıq öz yatağına sığmayan bir çaydır.

Aşığın cinaslı bayatıları özünün yaratdığı yaddaqalan cinas lövhələri ilə seçilir. Məsələn, göz yaşının axıb sel, göl əmələ gətirməsini hələ Sarı Aşıqdan əvvəl də çoxları deyib, amma göz yaşından əmələ gələn göldə ördəyin, qazın binə bağlaması, üzməsi lövhəsi məhz Sarı Aşığa məxsusdur. Bu onun şair təxəyyülünün kəşfidir:

Aşıq, qaz binə bağlar,
Meylin Qəzbinə bağlar.
Gözüm yaşı göl olar,
Ördək, qaz binə bağlar.

Əgər Sarı Aşıq "Gözüm yaşı göl olar, ördək, qaz binə bağlar" – deyirsə, XIX əsrin qadın aşığı Maralyanlı Pəri "Oynaşır" qoşmasında Sarı Aşığın bənzətmələrindən, təşbehlərindən heç

[1] Sədnik Paşayev, "Sarı Aşığın cinaslı bayatıları", "Azərbaycan müəllimi" qəzeti, 10 avqust 1983-cü il. Sədnik Paşa Pirsultanlı, "Azərbaycan folkloruna dair tədqiqlər", Gəncə, "Pirsultan", 2006, səh. 251-252.

də geri qalmayan ifadələr seçib elə bir bədii lövhə yaradır ki, insan şair-aşığın istedadına, deyim tərzinə heyran qalır.

Dad elərəm, haray naşı əlindən,
Yandı cigər, eşq ataşı əlindən,
Mən nə deyim gözüm yaşı əlindən,
Üzüşür sonalar, göllər oynaşır.[1]

Лаля, гызылэцл ган гырмызы бойасыны, рянэини щарадан алмышдыр? «Жейранчюл» яфсанясиня эюря, дцзлярдя битян лаляляр аьаппаг олмуш, овчу жейраны нечя йериндян йараламыш, жейранын ганы аь лаляпи гырмызы рянэя бойамышдыр. Бу инсанын «тясяввцрдя вя тясяввцрцн йардымы иля» йаратдыьы образлардыр. Щямин образлар инсан хяйалы иля, онун фантазийасы иля сцслянмишдир. Инсан, онун хяйалы, дцшцнжяси, тябиятя вя жямиййятя бахышы, тарихян зещниндя йаратдыьы етимолоэийасы хцсуси бир елмдир. Сары Ашыьын тясяввцрцня эюря, гызылэцлц гырмызы рянэя бойайан бцлбцлцн bağrının ганыдыр.

[1] Azərbaycanın aşıq və şair qadınları. (tərtib edəni Ə.Cəfərzadə). Bakı, Gənclik, 1991. səh 54

Сары Ашыг дейир:

Мян ашигям ганлы эцл,
Ганлы, даныш, ганлы, эцл.
Йемиш бцлбцл баьрыны,
Чыхмыш аьзы ганлы эцл.

Эюрцрсцнцзмц, Сары Ашыг инсан фантазийасынын мящсулу олан бир яфсаняни байатысынын мязмунуна эятирир, ону формажа эюзял бичимляндирир, тарихян бяшяриййятин йаддашына щякк ола биляжяк юлмяз поетик бир нцмуня йарадыр.

Sarı Aşıq yar həsrəti ilə göz yaşı tökür, hətta onun göz yaşı su kimi daşıb yarğan yaradır:

Mən aşıq, yar qan eylər,
İnciyər, yar qan eylər.
Axıtma göz yaşımı,
Su daşar yarğan eylər.

Sarı Aşığın cinaslı bayatıları cüt olsa da, hər birinin özünəməxsus məzmunu, məna çaları vardır:

Mən aşiqəm, yar qana,

Yar oxuya, yar qana.
Laçın vurmuş bir quşam,
Sığınmışam yarğana.

Laçın vurmuş quş kimi yarğana sığınsa da, min bir cəfa, əzab çəksə də, aşıq öz eşqindən dönən deyildir.

Ona bənzər cinaslı bayatılarından biri belədir:

Aşığam yar qan eylər,
Su gələr yarğan eylər.
Yada baxma, gözlərim,
Eşidər, yar qan eylər.

Sarı Aşıq gözəli bütün varlığı ilə sevir, qəlbən ona bağlanır. Buna görə də onun bayatılarındakı səmimiyyət öz qüdrəti ilə insanı heyrətdə buraxır. Məsələn:

Mən aşiq suca hanı?
Boyun tək suca hanı?
Ləblərin təşnəsiyəm,
Götürsə su cahanı.

Elə zənn edirsən ki, Sarı Aşığın ürəyi bayatı yurdudur. Gecə-gündüz çağlayan bayatı bulağıdır, bayatı qaynağıdır. Onun sevgilisinə məhəbbəti canından da əzizdir. Hətta o, canını bir qəfəsə

qoyub yarına göndərməyə, ona hədiyyə etməyə razıdır. Sarı Aşıq öz səmiyyəti ilə deyir:

Aşığın canı yara,
Qıyaram canı yara.
Tutun, qoyun qəfəsə,
Göndərin canı yara.

Yeri gəlmişkən, qeyd edək ki, Sarı Aşığın cinaslı bayatılarını cüt-cüt, qoşa-qoşa yaratması, eyni fikri bir neçə variantda verməsi təkrar təsiri bağışlamır, məhdudluq əlaməti kimi meydana çıxmır. Əksinə, cinaslı əkiz bayatılar ustad şair-aşığın nə qədər zəngin və geniş yaradıcı təxəy-yülə, tükənmək bilməyən bədii-poetik imkanlara malik olduğunu göstərir.

Sarı Aşığın cinaslı bayatıları yaratdığı canlı lövhələri və rəngarəng yurdları ilə seçilir. Onun canlı lövhələr, obrazlar yaradan bayatılarının yurdları da özləri qədər gözəl və təsirli olur.

Belə rəvayət edirlər ki, Sarı Aşığın sevgilisi Yaxşı və onun bacısı Günəş gəzə-gəzə gəlib onu bostanın yanında tapırlar. Aşıq duyur ki, bacılar arasında bəhsləşmə, mərcləşmə var; bun-ların hansı daha gözəldir Bunu qabaqcadan duyan Sarı Aşıq diqqətlə baxır ki, Günəş saçını səliqə ilə darayıb düzəldibdir. Amma Yaxşının saçı dağınıqdır. Sarı Aşıq eyhamla deyir:

Mən aşiqəm, tağ ayır,
Tağ içindən tağ ayır.
Yar yanına gələndə,
Dara zülfün, tağ ayır.

Yaxşı eyhamı başa düşür, acıqla qovunun tağını ayağı ilə əzir. Sarı Aşıq deyir:

Mən aşiqəm, tağı yar,
Bostanı yar, tağı yar.
Şamama sənə qurban,
Ayaqlama tağı yar.

Sarı Aşıq gələcək təcnis binalarını qurmaq üçün cinasdan tağ daşları yonmuş və qızıl kərpiclər kəsmişdir. Cinaslar qızıl söz külçəsi ilə yoğrulmuş və ondan təcnis saraylarını ucaltmaq üçün qızıl kərpiclər düzəldilmişdir. Sarı Aşığın bu qızıl kərpiclərindən Xəstə Qasım və Ələsgər kimi sənətkarlar böyük ustalıqla, memar kimi üst-üstə qoyaraq möhtəşəm təcnis sarayları qurmuşlar. Xəstə Qasımın və Aşıq Ələsgərin möhtəşəm təcnis binalarına, təcnis saraylarına baxanda heyrətə gəlirsən, duyğulanırsan, qürur hissi keçirirsən. Çox sənətkarlar təcnis saraylarının qapısını açıb oraya daxil ola bilməmiş, yalnız bu sarayın başına dolanmışlar. Zaman bu sarayların sonralar

qıfılına açar salmağı bacaran tək-tək istedadlı sənətkarlar yetişdirmişdir. Bunların sırasında Zodlu Abdullanın və Növrəs İmanın xüsusi mövqeləri və bacarıqları olmuşdur. Hər sahədə, o cümlədən, poeziyada yenilik yaratmaq, qabağa getmək, hər şeydən əvvəl, aşığın istedadından və bacarığından asılıdır.

Цмумиййятля, Сары Ашыг кянд, елат щяйатына дяриндян бяляд имиш. Сары Ашыг ешидир ки, чобан сцрцнц итириб, дяряляри ахтарыр, эялин ися ики итя бир йалагда йал верир, ики итин башы бир йалаьа сыьышмыр, боьушурлар, щяр ишя ариф сяняткар дейир:

Мян ашигям, йал ахтар,
Баш икидир, йалаг дар.
Синям дцрр мядянидир,
Инанмырсан, йар, ахтар.

Кянд щяйатына, гойунчулуьа бяляд адамлар йахшы билирляр ки, сащибсиз галан гойун-гузу, сцрцсü гаранлыг дцшяндя йала, тяпяйя, ишыглы-шаваглы йеря чыхыр. Она эюря дя эежя гойун итяндя ону дярядя йох, тяпядя, йалда-йамажда ахтармаг лазымдыр.

Бир дяфя ашыьын эцзары дяйирмана дцшцр. Ону эюрян гадынлар йашынырлар, аьыз-бурунларына пярдя чякирляр.

Дяйирманын пяри ися су дяйдикжя фырланыр, щеч няйя мящял гоймур. Ашыг дейир:

Йох, ашыг, пярдялидир,
Шух эюзял пярдялидир,
Су сярин, нову дярин,
Эюрян дер: пяр дялиди.

Онун мцшащидя габилиййяти, ифадя сечмяк бажарыьы, жинаслы байаты йаратмаг усталыьы чох эцжлцдцр.

Сары Ашыг сюздян, хцсусиля жинаслы ифадялярдян чох усталыгла истифадя едяряк, еля байатылар йарадыр ки, бунлар инсаны щейрятляндирмяйя билмир. Сары Ашыг дилимизин инжяликляриня ня гядяр дяриндян бяляд имиш.

Мян ашигям, цз цшяр,
Сона эюлдя цзцшяр.
Кцляк, даьытма сачы,
Тел тярпяняр, цз цшяр.

Биринжи мисра сонда фикрин ачылмасына кюмяк цчцндцр, икинжидя юрдяйин эюлдя цзмясиндян, цчцнжц вя дюрдцнжц мисраларда телин даьылмасындан, тярпянмясиндян вя цзцн цшцмясиндян сюз ачылыр.

Сары Ашыг юз фикрини щяр бир байатыда даща поетик бир дилля вермяйя чалышыр. О, «цз цшцйяр» демир, бу ифадянин «цз цшяр» шяклиндя ишлятмякля, сюзцн дейилиш тярзини жанлы халг данышыг дилиня йахынлашдырыр.

Сары Ашыг ешг фядаисидир. О, ешг йолунда йанар бир даь, сюнмяз бир ожагдыр. Мящяббят ашигляри бу ожагдан од апарыб, юзляринин сюнян ожаьыны ашыьын жан оду иля йенидян аловландыра билярляр:

Мян ашиг, ода пара,
Ай доьду, о да пара.
Вармы бир оду сюнмцш,
Жанымдан од апара.

Щяр шейдян яввял, Сары Ашыг юз ешгиня, севэисиня чох садиг бир инсандыр. Щятта о, габагжадан вясиййят едир ки, гцрбятдя юлся беля, онун йюнцнц йара сары гойсунлар.

Мян ашигям, йар сары,
Эейинибдир йар сары.
Гцрбятдя юлся ашыг,
Йюнцнц гойун йар сары.

Сары Ашыьын байатыларынын цряклярдя йурд-йува баьламасынын сябябляриндян бири, бялкя дя башлыжасы, щямин байатыларын бюйцк мящарятля, сяняткарлыгла йарадылмасы вя ордакы сямими вя цлви щисслярин йцксяк вя бядии бир дилля тяряннцм олунмасыдыр.

Ялбяття, бир kitabda Сары Ашыьын чох-сайлы, щям дя бир-бириндян эюзял вя мцкяммял, биткин жинаслы байатыларындан эениш сющбят ачмаг имкан харижиндядир. Онун щисс вя щяйяжанлары ясасян яняняви байатыларында, жинаслы байатыларында, щяйата бахышы, фялсяфи дцшцнжяляри, мцщакимяляри, билик дяряжяси ися байаты-баьламаларында вя дейишмяляриндя юз яксини тапмышдыр.

Сары Ашыьы шющрятляндирян, таныдан тякжя онун мяналы, мязмунлу, йцксяк бичимли жинаслы байатылары, байаты-баьламалары, дейишмяляри, йурдлу байатылары дейилдир. Сары Ашыг щяр шейдян яввял, йцксяк мясляk сащибидир.

Сары Ашыг ешги, севэиси йолунда бцтцн жюврц-жяфалара синя эярмяйя, щятта Нясими тяк йар йолунда сойулмаьа щазырдыр:

Эюзяллик сой илянди,
Шащмар да сой иланды.
Нясими тяк бу ашыг,
Йолунда сойуланды.

Бу сафлыг, ешг йолундакы фядакарлыг Сары Ашыьын вя онун севэилиси Йахшынын адларыны Азярбайжан ядябиййаты, хцсусиля халг поезийасында цлви мящяббят рямзиня чевирмишдир.

Йазылы вя шифащи поезийанын башга ъанрлары иля мцгайисядя демяк олар ки, байаты халг мяишятиня даща чох йахындыр. Бир аз дягиг десяк, халгын юз йарадыжылыьыдыр. Мящз буна эюря дя беля кцтляви поезийа хязиняси дахилиндя «яримямяк», фярди мювге газанмаг олдугжа чятин бир мясялядир. Сары Ашыг бу зянэин хязиня дахилиндя, няинки, итиб батмамыш, щятта, о юз истедадынын гцдряти иля щямин сащядя хцсуси мювге газана билмишдир. Бах, Сары Ашыьын бир сяняткар кими бюйцклцйц бундадыр.

Bayatı ifadəsi Sarı Aşığın adının sinoniminə çevrilmişdir. Sarı Aşığın adı çəkildikdə bayatı, bayatı dedikdə Sarı Aşıq göz önünə gəlir. Azərbaycan xalq poeziyasında bu bir möcüzədir.

Халг поезийасында юзцня ябяди вя юлмяз абидя гоймуш Сары Ашыьын ежазкар сянятинин сирляри ачылдыгжа, биз онун бюйцклцйцнц даща айдын эюрцрцк.

Халг поезийасында Сары Ашыг янняляри еля беля, бирдян-биря йаранмамышдыр, o özünəməxsus uzun bir yol keçmişdir.

Сары Ашыг йыьжам, лаконик ъанрда, дюрд мисралы байатыда bayatıda öz fəlsəfi düşüncəsini, bədii qənaətini, ağlabatan şəkildə ifadə etməyi bacarır. Öz istedadının gücüylə hər bir bayatını əbədi abidəyə çevirə bilir. Bax, budur Sarı Aşıq poeziyasının cazibə qüvvəsi, fərdi məziyyəti, təsir dairəsi.

Сары Ашыг няинки байаты ъанрыны юз шеирляри цчцн бир форма олараг севиб сечмиш, ейни заманда о юз сяняткар гцдряти иля ону башгаларына да севдиря билмишдир. Сары Ашыьын хейирхащ тясири нятижясиндя йазылы вя шифащи поезийанын бир сыра танынмыш нцмайяндяляри юз цзлярини бу сащяйя чевирмиш, илщамланмыш, онлар юзляри дя бир-бириндян гиймятли сянят инжиляри йаратмышлар.

Сары Ашыьын поезийасында эцлцш дя вар, эюз йашы да, севинж дя вар, кядяр дя.

Щижран даща чохдур. Шеирляринин эюзцндян вцсал щясряти йаьыр.

Мян ашыьам, йан дурсун,
Ат охуну, йан дурсун.
Зцлфцня де, о Йахшы,
Аь цзцндян йан дурсун.

Истедадынын гцдряти иля байатылара йени бядии бойалар вуран, ону мянажа, мязмунжа, формажа эюзялляшдирян, зянэинляшдирян, мящшурлашдыран, шющрятляндирян Сары Ашыг Азярбайжан ядябиййатында тцкянмяз ирс, из вя бу сащядя юлмяз няняляр гойуб эетмишдир.

Sarı Aşığın aşağıdakı cinaslı bayatısı ölməz bir tarixi abidədir.

Mən aşiqəm o yar mənim,
Qəm bağrımı o yar mənim.
Məkkəmdir, Mədinəmdir,
Qibləmdir o yar mənim.

Sarı Aşığın bayatıda işlətdiyi “Məkkəmdir, Mədinimdir, Qibləmdir o yar mənim” fikir və ifadələrini M.P.Vaqif iftixarla öz qoşmalarına gətirmiş və onu orijinal nəfəsi ilə yenidən zinətləndirmişdir.

Molla Pənah Vaqif Azərbaycan gözəlini ilahi bir sevgi ilə yeni təşbih və bənzətmələrlə Sarı Aşıqdan bir əsr sonra belə təsvir və tərənnüm edir.

Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm,
Bir zaman kuyində ziyarətimdir.
Qiblə deyib, qaşlarına baş əymək -
Gecə-gündüz mənim ibadətimdir.[1]

Sarı Aşıq sevən qəlbi sındırmağı Kəbə yıxmaqdan çətin hesab etmişdir. O bu münasibətlə deyir:

Mən aşığam yüz qandı,
Əlli qandı, yüz qandı.
Kəbə yıxmaq bir evdir,
Könül yıxmaq yüz qandı.

Aşıq İslam dini ilə bağlı müqəddəs yerləri yüksək qiymətləndirir və onları bayatılarında tez-tez dilə gətirir.

Aşıq min aya gələ,
Qurban Minaya gələ.
Sənsiz qərarım gəlməz,

[1] Molla Pənah Vaqif. Əsərləri. (tərtib edəni H.Araslı), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1968. səh. 113

Göydən min ayə gələ.

Akademik Həmid Araslı yazır: “Sarı Aşıq özündən sonra gələn bütün şairlərə qüvvətli təsir göstərmişdir. XIX əsrdə Məhəmməd bəy Aşiq, Aşıq Pəri və Zakirin də Sarı Aşıq təsirində yazılmış bir sıra bayatıları vardır”.[1]

Sarı Aşığın özüməxsus bir ustalıqla yaratdığı cinas qafiyəli bayatılar yeni təşbehlərlə elə gözəl bəzənmişdir ki, istər-istəməz insanı təsirsiz buraxmır.

Mən aşığam bağdadı,
Sona, meylin bağdadı.

Getməz bülbül sərindən,
Gül sevdası, bağ dadı.

Sarı Aşıq elə bayatılar yaradır ki, onlar bir xalq məsələni, atalar sözlərini yada salır.

Mən aşiq yağı-balı,
Xoş gördük Yağı, Balı.
Qarı düşmən dost olmaz,
Yedirtsən yağı, balı.

[1] H.Araslı. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Azərbaycan Universiteti Nəşriyyatı, Bakı, 1956. səh. 119

Sarı Aşıq bağlama bayatılarında olduğu kimi cinas bayatıların yaranmasında da insan azarından da istifadə edir. Əgər bağlama bayatılarda azarlardan istifadə edərkən adlar arasında təcazlar yaradır. Müəmmaları təcazlar arasında gizlədir. Lakin təcnisdə adlardan istifadə edərkən hikmətli atalar sözlərini göz önünə gətirir. Yuxarıda qeud etdiyimiz "yağ balı" bayatı-bağlaması buna misal ola bilər.

Sarı Aşığın müşahidə qabiliyyəti güclüdür. Adi detalları, ilk baxışdan diqqəti çəkməyən cizgiləri elə ustalıqla sezib bayatıya gətirir ki, onun sənətkar qüdrətinə heyran kəsilməmək olmur.

Mən aşiq gülə bağlar,
Gözlərin gülab ağlar.
Bülbül qorxmaz tikandan.
Meylini gülə bağlar.

Ustad sənətkar bilir ki, gül tikansız olmaz, tikan isə bülbülü qorxuda bilməz. Aşiqin, məşuqun eşq yolunda tökdüyü yaş göz yaşı deyil, gülabdır.

Bu bayatının cinası üstündə qurulan ikinci variant peyzajdakı rəng çalarları baxımından əvvəlkindən də gözəldir:

Mən aşiq, gülə bağlar,
Çilinər, gülab ağlar.
Göz yaşım leysan oldu,
Büründü gülə bağlar.

Sarı Aşıq nədən danışır, danışsın sözün bir qanadını Yaxşıya bağlayır:

Aşıq Yaxşıdan gözlər,
Mürğün yaxşı dən gözlər.
Baxdıqca şirin düşər,
Doymaz Yaxşıdan gözlər.

Sarı Aşıq Yaxşını görmək üçün dağların yağ kimi əriməsini, uca dağların alçalmasını, yarın görünməsini arzulayır, lakin insanlığın vüqarı olan, dağların əriməsinə, alçalmasına qıymır. Hətta özünün ölümünə razı olur, dağların qocalmasına belə qıymır.

Mən aşiq qarı dağlar,
Saxlarsan qarı dağlar,
Razıyam vaxtsız ölüm,
Sən qocal, qarı, dağlar.

Qışda qar yağır, Sarı Aşıq xəyalən elə zənn edir ki, dağların başı da Yaxşının dərdindən ağarmış, odur ki, dağlar vaxtsız qocalmışdır.

Yox, aşıq qocalarmış,
Qəm çəkən qocalarmış,
Yaxşı yarın dərdindən,
Dağlarda qocalarmış.

Sarı Aşıq onu əhatə edən mühiti xüsusi seyr edir, onda yararlı mövzular gəzir. Bu zaman onun xəyalı quş kimi qanad açır, dağdan dağa uçur. Onu yeni mənzərələr görməyə meylləndirir. Sarı Aşıq öz-özünə deyir:

Aşığam qanadıynan,
Çək boynum qanadıynan.
Xəyalım gəzən yeri,
Quş gəzməz qanadıynan.

Sarı Aşığın bayatıları içərisində qarğış motivli nümunələr də az deyildir. Dağ insanın vüqarıdır, dağ onun yurd yeridir, güvənc yeridir. Lakin bəzən insan yurd yerində gördüyü insanı bir də görmür, dağa qarğıyır:

Aşığam əri dağlar,
Hanı yurd yeri, dağlar?

Yel vursun, sel aparsın,
Yağ kimi əri dağlar.

Hətta, Aşiqlər uca dağların alçalmasını istəyir ki, yarı görə bilsin. İnsan öz arzusu ilə dağları alçatmaq, ucaltmaq qüdrətini özündə hiss edir. Bunlardan biri də Sarı Aşıqdır:

Aşığın yardı yarı,
Bayqunun yardı yarı.
Alçalsın uca dağlar,
Görünsün yar diyarı.

Demək olar ki, Sarı Aşıq bayatılarının əksəriyyətini Yaxşının təsvir və tərənnümünə həsr etmişdir.

Mən aşıq, vərəm bağlar,
Şam çəkər, vərəm bağlar,
Gözlər Yaxşı yar gəlməz,
Ürəyim vərəm bağlar.

"Şam çəkər, vərəm bağlar" buradakı vərəm bərə mumunu bildirir. Sarı Aşıq sevənlərin ürək sızıltısını, arının şan üstündə sızıldaması ilə müqayisə edir.

Aşıq can deyə sızlar,
Arı şan deyə sızlar.
Sevənlər yardan ayrı,
Xəstə can deyə sızlar.

Sarı Aşığın Yaxşıdan ötrü yarıcanı qalmamışdır. O bunu belə ifadə edir.

Mən aşıq, yarı canım,
Yaxşıdan yarı canım.
O qədər yar, yar dedim,
Qalmadı yarı canım.

Yaxşının yolunda can qoyan Sarı Aşığın dərdinə çarə bulunmur. O canının ara yerdə itdiyini belə ifadə edir.

Mən aşıq, ara yerdə,
Qəssab, can ara yerdə.
Öldürdü Yaxşı məni,
İtdi qan ara yerdə.

Ən çətin ayaqda Sarı Aşıq təsəlli tapmağa, təskinlik tapmağa sevinc gətirəcək an axtarır. O bu münasibətlə yazır:

Bu bulaq başdan gələr,

Süzülər daşdan gələr.
Sevərsə Yaxşı məni,
Durar, o başdan gələr.

Sarı Aşıq dərdini, qəmini unutmaq, dağıtmaq üçün dağa göz dikir. Onu gəzmək arzusuna düşür. Öz-özünə deyir:

Mən aşiq, bağda nə var?
Şeh düşmüş, bağda nə var?
Könül deyir, gəl gedək,
Yaxşısız dağda nə var?

Sarı Aşıq öz dərdini, ələmini dağıtmaq istəyir. Üzünü nalə çəkən bülbülə tutur və deyir:

Mən aşiqəm, oxu tər,
Aman bülbül, oxu tər.

Qəlbimə ox atmayın,
Qəmim duman, ox itər.

"Yar arxına" misrası ilə başlayan bayatı gözəlin zərif yerişini, duruşunu təsvir və tərənnüm edir. Bunlarda biri də aşağıdakı bayatıdır:

Mən aşiq yar arxına,

Su gəlir yar arxına.
Əllərin çox nazikdir,
Qorxuram yarar xına.

Sarı Aşıq bəzən gözəli təbiətlə vəhdətdə verir. Təbiətdən epitetlər seçib fikrini daha obrazlı şəkildə dilə gətirir. Məsələn:

Mən aşiq Gülüstana,
Yar gəlir gülüstana.
Qorxuram, yağış yağa,
Qoynunda gül istana.

Sarı Aşıq yağış yağıb gözəlin qoynunda gülün islanmasından qorxurdu. Qəlbində o gülü axtararkən bağçadan gələn sonanın-gözəlin gül üzünə o gülün sancıldığını görür:

Mən aşıq gül yüzünə,
Şeh düşüb gül yüzünə.
Sonam bağçadan gəlir,
Sancılıb gül yüzünə.

Hətta, Sarı Aşıq məhəbbət aşiqləri Fərhadı, Şirini xəyalında canlandıraraq yaddaqalan bir bədii lövhə yaradır:

Mən aşiq şirin gələ,

Şirin yar şirin gələ.
Fərhad qayalar çapar,
Gözləyər Şirin gələ.

Bəzən Sarı Aşığın bayatıları belə sadə, aydın və dərin məzmunlu olduğu üçün xalq tərəfindən sevilib ağızdan-ağıza, nəsildən-nəsilə keçərək əsrimizə qədər yaşamışdır.

Sarı Aşıq öz dövründə və özündən sonra bayatı yaradıcıları üçün bir örnək olmuş, orijinal, təbii, əlvan, dərin məzmunlu bayatıları ilə çoxlarına təsir göstərmiş və onları yazıb-yaratmağa ruhlandırmışdır. XIX əsrdə üç böyük qadın aşığı sənət meydanında görünmüşdür. Onların üçü də Sarı Aşığın bayatı çeşməsindən içib feyzyab olmuş, ilhamlanmış, onlar da yaddaşlarda yaşayan bayatılar yaratmışlar. Hətta onların üçü də bayatılı hekayətlər yaratmağa meyl göstərmişlər.

XIX əsrin maraqlı şəxsiyyətlərindən olan Şəmkirli Aşıq Həmayıl isə, Sarı Aşığın nikbin məzmunlu bayatı – deyişmələrinə üstünlük vermişdir. Bu istedadlı aşıq – şair "Həmayıl və Teymur" adlı kiçik süjetli dastan yaratmışdır. "Arzu-Qəmbər", "Yaxşı-Yaman", "Aşıq və Yaxşı" dastanları tamamilə bayatı əsasında qurulduğu halda, "Həmayıl və Teymur" dastanının şeir hissəsi həm qoşmalardan, həm də bayatılardan iba-

rətdir. Dastanın qısa süjeti belədir ki, təzə evlənmiş əmi qızı və əmi oğlu toydan bir neçə gün sonra bir-birindən ayrılmalı olurlar. Qız yaylağa gedir, oğlan isə aranda bağ, bostan becərməyə qalır. Bir-birinə həsrət sevgililər arasında yazışma, deyişmə, söz güləşdirmə başlayır.

Oğlan:

Yarım, mənə qar göndər,
Əsirgəmə, var göndər.
Əl dəyməmiş yaylıqda,
Gün görməmiş qar göndər.

Qız:

Oğlan, mənə nar göndər,
Alma, heyva, nar göndər.
Əkilməmiş ağacdan,
Üstə nə var dər göndər.

Oğlan:

Yarım, mənə bar göndər,
Səndə hər nə var göndər.
Açılmamış yaxada,
Əl dəyməmiş nar göndər.

Qız:

Yarım, gəl, narın ələ,
Narın əz, narın ələ.
Bağı bərk, bağçası bərk,
Verərmi narın ələ.

Maralyanlı Aşıq Pəriyə Məhəmməd bəy Aşiq tərəfindən bu cür qoşma və bayatılar həsr olunduğu kimi, Aşıq Pəri özü də ömrünün, yaradıcılığının sonuna yaxın bayatıya müraciət etmiş, kövrək, bir qədər kədərli bayatılar düzüb qoşmuşdur. Sevgilisi uzaqlarda olan Aşıq Pəri ölüm ayağında onu arzulayır və yanıqlı bayatılar çəkir.

Aman yarım, səsə gəl,
Durma, daban basa gəl.
Sağlığıma çatmazsan,
Mən ölürəm, yasa gəl.

Və yaxud:

Əlində gül dəstə gəl,
Dərdin qoy dərd üstə gəl.
Can verəndə gəlmədin,
İndi məzar üstə gəl.

Maraqlıdır ki, bu bayatılara Pərinin sevgilisinin də cavabı vardır:

Gülüm səsə gəlmişəm,
Daban basa gəlmişəm.
Sağlığına çatmadım,
Pərim, yasa gəlmişəm.

Aşıq Bəsti də bayatı-deyişmələri təqdir etmiş, maraqlı bayatı-deyişmələr düzüb qoşmuşdur.

Yayın əvvəllərində bir çoban ulağın belində Kəlbəcərin Çınqıllı yaylağına tərəf gedir. O, Lev çayının sahilində tək bir qızın palaz yuduğunu görür. Çoban bu qızın ağlını yoxlamaq üçün bir bayatı çəkir:

Ay qız, ay qız mən zamın,
Bağda gülə mən zamın.
Ay qız üzündən öpüm,
Ləkə düşsə mən zamın.

Bəsti çobanın nəfəsini dərməyə qoymur. Bayatıya bayatı ilə cavab verir:

Oğlan, oğlan mən zamın,
Bağda gülə mən zamın.
Düş qoy atan otlasın,
Əgər qaçsa mən zamın.

Ümumiyyətlə, Azərbaycan poeziyasında Sarı Aşığın pərəstişkarları onun təsiri ilə yazıb-yaradan sənətkarlar çoxdu. Bu tədqiqat üçün xüsusi bir movzudur.

"Bizcə Sarı Aşığın yaratdığı, hətta bəlkə də kəşf etdiyi cinas qafiyələr öz dövründə və özündən sonrakı aşıq ədəbiyyatımızda təcnis yaradıcılığının inkişafında mühüm rol oynamışdır. Gələcək təcnis binalarının tikmək üçün Sarı Aşıq mahir bir sənətkar kimi cinasdan tağ daşları yonmuşdur.[1]

Heyf ki, Sarı Aşığın cinaslı bayatıları, bağlama bayatıları tam toplanılmamışdır. Onun hər bayatısı ələ keçdikdə fikrimizi, duyğumuzu təzələyir. Yeni söz deməyə imkan yaradır. Həkəri çayı haqqında onun hər bayatısı yeni fikir söyləməyə imkan yaradır. Məsələn:

Təkəri axır yan verir,
Çəmənə, çölə can verir.
Yaxşı iraq olanda,
Yaralarım can verir.

[1] Sədnik Paşayev. "Ağdabanlı Qurban və müasirləri" (namizədlik dissertasiya), 1969. səh. 33

Bu bayatı ilə və bu səpkili bayatıya Aşıq Bəsti kimi püxtə sənətkarın tanış olması bizə çox şey söyləyir. Məlumdur ki, özünün Xan Çobanının faciəli ölümündən sonra onun ayağı dəyən yerləri, dağları gəzməklə təsəlli tapmışdır. Bəsti Ağ Çınqılı, Tamaşalını, Ərgünəşi gəzdiyi kimi, Həkəri çayının da sahilinə gəlmişdir. Aşağıdakı bayatı Sarı Aşığın bu nadir incisi Aşıq Bəstinin iliyinə, qanına işləmişdir.

Mən aşıq yanı gül,
Həkərinin yanı gül.
Güldən ayrı yaşamaz,
Can verər ölər bülbül.

Aşıq Bəsti bu bayatıların təsiri ilə özünün "Düşmüşəm" qoşmasını yaratmışdır.

Məcnunsuz çöllərin Leylisisəm mən,
İtkin yarın sorağına düşmüşəm,

Aşiq Yaxşı ilə gəzir çəməndə,
Həkərinin qırağına düşmüşəm.[1]

[1] Azərbaycanın aşıq və şair qadınları. (tərtib edəni Ə.Cəfərzadə). Bakı, Gənclik, 1991. səh 130

Sarı Aşığın və Yaxşının sevgi macəraları çox ürəkləri dağlamış, qəlbləri yaralamış, onları yeni-yeni bədii şeir nümunələri yaratmağa sövq etmişdir:

Mən aşiq qəlbi dağlar,
Qəlbidən qəlbi dağlar.
Qoyman namərd tənəsi,
Can yaxar, qəlbi dağlar.

Məlumdur ki, istər xalq qəhrəmanları, istərsə də zəmanəsindən gileyli aşiqlər dağlara pənah aparmış, dağları özünə arxa seçmiş, dərdini onunla bölüşmüş və öz duyğularının, hislərinin ifadəsi ilə ölməz sənət inciləri yaratmışlar.

Yaman təkcə Lələyə və Sarı Aşığa yamanlıq etmiş şəxslərə aid edilmiş sifətlər deyildir. Yamanlıq namərdlərin ünvanına yazılmış addır. Sarı Aşıq deyir:

Aşıq gülə bilməsin,
Sızıldasın, gülməsin,
Mənki gülə bilmədim,
Yaman üzün gülməsin.

Sarı Aşıq bəzən Ləlәni təkrar edir, bəzən də deyilmiş bayatılara yeni nəfəs verir. Bu

bayatılar elə möhürlənmişdir ki, onlar istər-istəməz Lələni və Sarı Aşığı yada salır və duyğulandırır. Çünki adı çəkilən bu yerlər həmin sənətkarların yaşadığı coğrafi ərazilərlə bağlıdır.

Aşıq itib eldən,
Yol düşər İtibeldən,
Birdə geri dönmərəm,
Mən getsəm iti beldən.

Sarı Aşığın bayatılarını bir zaman daxilində toplamaq, əldə etmək müşkül olar. Aşığın cinaslı bayatılarını, bağlama bayatılarını zaman-zaman arayıb axtarmaq, onu səbrlə toplamaq lazımdır. Xoşbəxtlik ondadır ki, Sarı Aşığın bayatıları yüzlərlə, minlərlə bayatı incisinin xəzinələrinə daxil olsa da, dərhal seçilir və mən Sarı Aşığın bayatısıyam deyir.

b) Sarı Aşığın bağlama bayatıları. Sarı Aşığın tarixi xidməti cinas qafiyəli bayatılar yaratması ilə məhdudlaşmır. O, aşıq ədəbiyyatında təcnis yaradıcılığının geniş inkişafı üçün zəmin yaratdığı kimi, bağlama-bayatıları və qıfılbəndlərin inkişafı üçün də xeyli iş görmüşdür.

Bayatı-bağlamalar Sarı Aşıq yaradıcılığının bütöv bir qolunu təşkil edir. Xalq məişətinə

dərindən bələd olan Sarı Aşıq tapmacalarından istifadə yolu ilə kamil bayatı-bağlama nümunələri yaratmışdır. Onun yaratdığı bu səpgili bayatıları tapmacalarla qıfılbənd formalı şerlər arasında bir keçid, bir körpü səviyyəsində dayanmışdır. Görkəmli sənətkarın bu sıradan yaratdığı bədii nümunələrin mənzərəsindən də göründüyü kimi, onun bayatı-bağlamalarında da, cinaslı bayatılarında olduğu kimi, yüksək sənətkarlıq keyfiyyətləri aparıcıdır.

Sarı Aşıq bədii sözün yaratdığı rəng çalarından məharətlə istifadə edərək, mükəmməl, bitkin, mənalı, insanı dərindən düşünməyə vadar edən bayatı-bağlamalar düzüb qoşmuşdur. O, təkcə "göy" ifadəsi ilə əlaqədar bir neçə bayatı-bağlama yaratmışdır.

Mən aşiq, göydə nə var?
Göy yemiş, göy dana var.
Ayaqları yerdədir,
Tap görüm, göy də nə var?

Bu bayatı-bağlamada adamı çaş-baş salan "göydə nə var?" ifadəsidir. Qarşıdakı elə başa düşür ki, ondan göydə - asimanda, ərşdə nə olduğu soruşulur. Halbuki, burada asimandan, göydən deyil, göy zəmidən, göy çəməndən söhbət

gedir. Hətta, ikinci misrada sualın cavabı da var ki, göydə "göy yemiş, göy dana var". Burada söz oyununa qarşı diqqətli olmalı, sözü sözdən seçmək, incə mətləbi sezmək və çaşmamaq lazımdır. Belə nümunələrdə əsas məqsəd qarşıdakının dilin incəliklərinə nə qədər bələd olduğunu yoxlamaqdır. Diqqət verin: birinci misrada aşıq soruşur: göydə nə var? İkinci misrada göy dananın göy taxıl və ya göy ot yediyi, üçüncüdə dananın ayaq üstə, yəni ayaqları üstə dayandığını, ayaqları yerdə olduğu, dördüncü də isə dananın bədəninin tamam göy olduğu aydınlaşır. Bu həm də bir növ, "göy" ifadəsinin təkrarı ilə yaradılmış cinasdır ki, burada mətləb cinaslar arasında gizlədilmiş, bir növ, bilərəkdən dolaşdırılmışdır. Əslində isə adi bir mənzərə təsvir olunur. Bu adicə bayatı-bağlama deyil, həm də mükəmməl yanıltmac nümunəsidir.

Sarı Aşıq mövzu obyektini dəyişib, "göy" ifadəsi əsasında ikinci bir bayatı-bağlama da yaratmışdır.

Mən aşığam, Qəmər hey,
Harayladı, Qəmər hey.
Göydə bir madyan otlar,
Yerdə qulun əmər, hey.

Burada Qəmər ya atın, ya da bir xanımın adına işarədir. Bu bayatı-bağlama yanı qulunlu atın göy otluqda otlaması ilə əlaqədardır. Birinci misrada qulunun anasını dayanmadan əmməsindən, ikincidə örkənin belinə kəmər kimi dolanmasından, üçüncüdə göy zəmidə, göy otluqda bir madyanın otlamasından, dördüncüdə yerdə, yəni ayaqları yerdə anasının altında qulunun əmməsindən söhbət gedir. Birinci bayatı-bağlamada olduğu kimi, burada da çaşqınlıq törədən "göydə bir madyan otlar" misrasıdır. İlk baxışda adama elə gəlir ki, madyan göydə - asimanda, ulduzların yanında otlayır. Onu da yerdəki qulun əmir. Göründüyü kimi yenə də əsas məqsəd qarşıdakının həssaslığını, fəhmini yoxlamaqdır.

Sarı Aşıq bayatı-bağlamalarında sözlə-söz arasında, qafiyə və cinas qafiyələr arasında mətləb gizlətmək yolu ilə qarşıdakını, dinləyicini düşündürmək üsulundan bacarıqla istifadə etmişdir.

"Göy" sözünün, cinasının həm göyü – asimanı, həm də zəmini, göy otu, otlağı bildirməsindən, onun müxtəlif məna çalarından istifadə edərək, Sarı Aşıq dəfələrlə bir-birindən qiymətli, məzmunlu bayatı-bağlamalar yaradıb meydana çıxarmışdır.

Sarı Aşığın aşağıdakı bağlama-bayatısı da çoxvariantlıdır. Əyanilik naminə həmin variantları ardıcıl qaydada təqdim edirik.

Mən aşiq, budaq atar,
O dağı, bu dağ atar.
Torpaqsız yerdə bitər,
Yarpaqsız budaq atar.

Mən aşıq, haçalandı,
Ay doğdu, haçalandı.
Torpaqsız yerdə bitdi,
Yarpaqsız haçalandı.

Mən aşıq, haça verim,
Sana, gör, neçə verim?
Torpaqsız yerdə bitib,
Yarpaqsız haça verim.

Aşıq, gələn hacıdır,
Əlində ağacıdır,
Budaq verər, bar verməz,
Görən nə ağacıdır?

Bu bayatı-bağlamalarda rəngarəng, müxtəlif şəkildə təsvir və tərənnüm olunan, qeyri-adi görünən, heyrət doğuran torpaqsız yerdə bitən, bar verməyən maralın buynuzudur.

Sarı Aşıq bayatı-bağlamalarının ilk misrasını elə qurur ki, adi söz sual, sorğu təsiri bağışlayır, bununla da vəziyyəti dəyişir, bilərəkdən sınaq məqsədilə dolaşıqlıq yaradır.

Mən aşıq, onda nə var,
Qarşıda on dana var.
Yüz yaşlı qarı gördüm,
Hey deyir: on dana var.

Aşıq "onda nə var ?", "on dana var" ifadələrini yanaşı elə işlədir ki, eyni şəkildə səslənir, başlanğıcda ifadələri bir-birindən fərqləndirmək olmur. Daha eşitdiyinə inanmırsan, gözünlə sözlərə diqqətlə baxırsan. Aydın olur ki, birinci misrada belə deyilir: Onda nə var, nə varı var, on danadan başqa. Yüz yaşlı qarı da hey deyir ki, on dana var. Ya qarı dananın azlığından şikayət edir, ya on dananı çox bilir, ya da itik axtarana on dananın qarşıda olduğunu, gördüyünü deyir. Beləliklə, adi sözlərlə, ifadələrlə qurulmuş bayatı-bağlamanı adilikdən çıxarır, əsl mənanı müxtəlif yollarla gizlətməyə, ört-basdır etməyə çalışır.

Başqa bir nümunəyə diqqət yetirək:

Mən aşıq, qoyun dərdi,
Çobanın qoyun dərdi.

Bağban bir gül üzməmiş,
Çoban bir qoyun dərdi.[1]

Bu bayatı-bağlama "qoyun" cinası üzərində qurulmuşdur. Birinci misra mətləbi açmağa hazırlıq görür, ikincidə çobanın qoyun-quzu dərdindən, qayğısından danışılır. Üçüncü misrada mənanı açmağa açar verilir. Belə məlum olur ki, bağban bağdan, güllükdən bir gül üzməmiş, çoban bir qucaq, yəni bir qoyun-qoltuq gül yığmışdır. Burada bir incə mətləb də var. Bağban gülü bir-bir üzür, hətta gülü üzməyə əli də gəlmir. Çoban isə nə varsa dərməyə çalışır. Gülü otla qarışıq yolmaclayır.

Başqa bir nümunə:

Mən aşığam, buz bağlar,
Qışda çaylar buz bağlar.
Aşıq bir hikmət görüb,
Od içində buz bağlar.

İlk beytdə qışda çayların buz bağlamasından söhbət gedir. Burada təəccüblü, anlaşılmaz heç nə yoxdur. Müəmma aşığın öz gözləri ilə gördüyü hikmətdədir. Əsrarlı görünən, "Od içində buz

[1] Sədnik Paşayev, "Üzük tapdım, qaşı yox", "Azərbaycan müəllimi " qəzeti, 16 aprel 1976-cı il. Sədnik Paşa Pirsultanlı, "Azərbaycan folkloruna dair tədqiqlər", Gəncə, "Pirsultan" 2006, səh.251-252.

bağlayan" nədir? Bunu bilmək üçün gərək ocaq üstə bişən südün yavaş-yavaş "buz bağladığını", qaymaq tutduğunu öz gözlərinlə görmüş olasan və bədii təxəyyül gücünə onu obrazlı şəkildə mənalandıra biləsən. Soyuduqca suyun üzündə buz qalınlaşdığı kimi, südün üzündə də qaymaq qat bağlayır. Bütün bunlar Sarı Aşığın geniş müşahidələrinin, zəngin biliyinin və poetik təxəyyülünün məhsuludur.

Sarı Aşıq nadir adam adlarından istifadə yolu ilə də bayatı-bağlamalar yaratmışdır.

Mən aşıq, boğazdadı,
Dad, ləzzət boğazdadı.
Axşamdan öküz öldü,
Sabahdan boğazdadı.[1]

Sarı Aşıq kənd həyətına, elat camaatına, məişətinə elə dərindən bələddir ki, o, ən kiçik görünən həyat hadisələrinə elə diqqət yetirir ki, onlardan poetik nəticə çıxarır.

Burada fikir dolaşıqlığı yaradan axşam – sabah antonimlərdir. Adam inana bilmir ki, axşamdan ölən öküzü niyə sabah boğazlasınlar,

[1] Sədnik Paşayev, "Sarı Aşığın bağlama bayatıları", "Yüksəliş" qəzeti, 17 dekabr 1970-ci il. Sədnik Paşa Pirsultanlı, "Azərbaycan folkloruna dair tədqiqlər", Gəncə, "Pirsultan" 2006, səh. 253

kəssinlər? Burada müəmmanı yaradan "Sabahdan" sözüdür. Dərindən təhlilə keçdikdə aydın olur ki, axşamdan ölən öküzü "Sabahdan" adlı oğlan boğazlamış, yəni öküzün başını o kəsmişdir.

Sarı Aşıq antonimlərdən, cinas sözlərdən, xeyli aralı görünən fəsil adlarından istifadə yolu ilə də yaddaqalan, mənası, məzmunu olan, heyrət doğura bilən, qarşısındakını düşündürən maraqlı bayatı-bağlamalar da qurur.

Mən aşiqəm, gələn yaz,
Al əlinə qələm, yaz.
Aşı Payız bişirdi,
Yağın tökdü Gələnyaz.

Burada müəmma Payız və Gələnyaz adlı qızların adlarının misralarda xüsusi bir tərzdə işlədilməsi yolu ilə yaradılmışdır. Bayatı-bağlamanı araşdırdıqda asanca anlaşır ki, aşı Payız adlı qız bişirmiş, yağını isə Gələnyaz adlı qız tökmüşdür.

Adların özü də təbii olaraq bunların dünyaya gəlməsi ilə yaranmışdır. Sabahdan – yəni oğlan sabah dan üzü, səhərə yaxın doğulduğu üçün, qızın biri payız, o biri isə yazda doğulduğu üçün onlara bu adlar verilmişdir. Xalqımızda bu ənənə indi də yaşayır. Səhər, Bahar və b. adlar

onların dünyaya gəldikləri vaxtla, zamanla əlaqədardır.

Sarı Aşığın olduqca maraqlı çoxvariantlı bayatı-bağlamalarının başqa nümunələrinə diqqət yetirək. Təhlilə cəlb edəcəyimiz həmin nümunələr arasında fərqlər az da olsa, onların əlimizdə olanlarının hamısını təqdim etməyi məqsədyönlü sayırıq.

Mən aşığam, ay mələr,
Bulud altdan ay mələr.
Dəryada bir gül bitib,
Su deyibən ay mələr.

Mən aşıq, süsən ağlar,
Sünbülü kəsən ağlar.
Dəryada bir gül bitib,
O da su deyib ağlar.

Aşıq, su deyin ağlar,
Sünbül su deyin ağlar.

Dəryada bir gül bitib,
O da su deyin ağlar.

Bu bağlama-bayatılarda fikir "dəryada bitən gülün" su deyin ağlamasında gizlənibdir. "Dərya-

da bitən gül" ürəkdir, onun hər tərəfi qan – su olsa da, yenə də su istəyir.

Məlumdur ki, dəyirmana dən hazırlanarkən buğda duru suda yuyulur, palazın üstə sərilir, möhkəm qurulduqdan sonra dəyirmanlıq olur. Dəni dəyirmançının gözü önündə sərib qurudurlar və sonra üyüdürlər. Sarı Aşıq müşahidə edib görür ki, iki qadın əlində çubuq dəyirmanlıq dəni gözləyirlər. Dənə can atan quşu vurmağa cəhd göstərirlər. Bu mənzərəni görən Sarı Aşıq poetik bir bağlama-bayatı yaradır.

Mən aşiq Alıncadan,
Xəbər var Alıncadan.
Bir quş yüz bəla çəkər,
Sərgidən alınca dən.

Bağlama, qıfılbənd yaratmaq meyli bütün sənətkarlarda eyni dərəcədə olmamışdır. Ustad sənətkarların bəziləri bu janra ara-sıra, yeri düşəndən-düşənə müraciət etmiş, beləliklə də, onların yaradıcılığında ardıcıl sistem şəklini almamışdır. Sarı Aşığın yaradıcılığına güclü meyl göstərən Xəstə Qasım və Aşıq Ələsgər aşıq ədəbiyyatında onun ənənələrini davam etdirmiş və dərin məzmunlu qıfılbəndlər yaratmışlar. Aşıq poeziyasında Xəstə Qasımın və Aşıq Ələsgərin

bir sıra mürəkkəb qıfılbəndləri bu günə qədər açılmayıb, bağlı qaldığı kimi, Sarı Aşığın da bəzi maraqlı bayatı-bağlamaları açılmamış qalmışdır. Məsələn: "qoç bir quzu doğub" kimi qəribə fikir üzərində qurulmuş çoxvariantlı bayatı-bağlamalar buna misal ola bilər.

Mən aşığam, ay mələr,
Bulud altdan ay mələr.
Bir qoç bir quzu doğub,
Məmə deyin ay mələr.

Mən aşığam, ay mələr,
Bulud altdan ay mələr.
Cəzirədə qoç doğub,
Məmə deyin ay mələr.

Mən aşığam, ay mələr,
Bulud mələr, ay mələr.
Doğmamış qoyun gördüm,
Quzu deyin ay mələr.

Sarı Aşığın bayatılarının çoxvariantlı olması təəccüb doğurmamalıdır. Çünki bu, onun yaradıcılığında bir ənənədir.

Zəkalı, dərin biliyə malik olması və hazırcavablığı hələ özünün sağlığında Sarı Aşığa böyük şöhrət gətirmiş, onu el içərisində məşhurlaşdır-

mışdır. Həyatla, təbiətlə, kainatla bağlı bayatı-bağlamalarının sorağını eşidib, onunla deyişməyə, bəhsləşməyə, döyüşməyə, söz güləşdirməyə gələnlər olmuşdur. Bu istiqamətdə "yurd"u olan bir neçə sınaq-imtahan bayatısı da el arasında yayılmışdır.

Mən aşiq, ay qonaqlar,
Xoş gördük ay qonaqlar,
Deməyin yoxsuldu aşıq,
Sizi bir ay qonaqlar.

Sarı Aşıq belə imtahanlara dönə - dönə düşmüş və hər dəfə də sınaq meydanından istedadının qüdrəti ilə üzü ağ çıxmışdır.

Cinas bayatılar və təcnislər söz ehtiyyatının zənginləşməsinə geniş imkan yaratdığı kimi, bayatı-bağlamalar və deyişmələr də fikrin, beynin, zehnin itiləşməsinə və dərinləşməsinə kömək etmişdir. Sarı Aşığın bu sahədə bədii fikrimiz üçün gördüyü xidmətləri misilsizdir və bu estetik məziyyətlərin sanballı və ciddi filoloji təhlilə cəlb olunması zəruridir.

Sarı Aşığın hiss və həyəcanları əsasən ənənəvi bayatılarında, cinaslı bayatılarında; həyata baxışı, fəlsəfi düşüncələri, mühakimələri, bilik

dərəcəsi isə bayatı-bağlamalarında və deyişmələrində öz əksini tapmışdır.

Xalq poeziyasında özünə əbədi və ölməz abidə qoymuş Sarı Aşığın ecazkar sənətinin sirləri açıldıqca, onun böyüklüyü daha aydın görünür.

Sarı Aşığın bayatılarının ürəklərdə yurd – yuva bağlamasının səbəblərindən biri, bəlkə də, başlıcası, həmin bayatıların böyük məharətlə, sənətkarlıqla yaradılması və oradakı səmimi və ülvi hisslərin yüksək və bədii bir dildə tərənnüm olunmasıdır.

Sarı Aşıq nəinki bayatı janrını öz şeirləri üçün bir forma olaraq sevib seçmiş, eyni zamanda o öz sənətkar qüdrəti ilə onu başqalarına da sevdirə bilmişdir. Onun xeyirxah təsiri nəticəsində yazılı və şifahi poeziyanın bir sıra tanınmış nümayəndələri bu sahəyə ciddi maraq göstərmiş və onlar özləri də qiymətli sənət inciləri yaratmışlar.

Sarı Aşığın poeziyasında gülüş də var, göz yaşı da, sevinc də var, kədər də. Ancaq bütün bunlarla yanaşı hicran və həsrət nisgili daha çoxdur. Şeirlərinin şah damarında vüsal həsrəti döyünür və bu döyüntü o dərəcədə səmimi və inandırıcıdır ki, həmin həsrətli bayatıları eşidən hər bir kəsin də niskilli qəlbi Aşıq könlü ilə bərabər çırpınır, ürəyi döyünür.

Aşıq, sazına qurban,
Güllü yazına qurban.
Baxıb Yaxşıdan doymaz,
Sərraf gözünə qurban.

İstedadının qüdrəti ilə bayatılara yeni bədii boyalar vuran, onu mənaca, məzmunca, formaca gözəlləşdirən, zənginləşdirən, məşhurlaşdıran, şöhrətləndirən Sarı Aşıq Azərbaycan ədəbiyyatında tükənməz irs, iz və bu sahədə ölməz ənənələr qoyub getmişdir.

Aşağıdakı nümunə bayatı-bağlamaya bənzəsə də, mənzum tapmaca olaraq, ondan seçilir. Burada müraciət, deyim tərzi başqa cür olur.

Ay doğdu, ha ay doğdu,
Göydən yerə nur yağdı.
Anası Beşikdəykən,
Qızı bir oğlan doğdu.

Mənzum tapmacalarla bayatı-bağlamalar daha çox deyim tərzinə, ifadə seçiminə görə fərqlənirlər.

Burada insanı çaşdıran beşikdi. Əslində də belədir: qızın anası Ağdamın Beşik kəndində olarkən qızı öz evlərində, başqa kənddə bir oğlan

doğub. Bu məzmunda tapmacalar bayatı-bağlamalara çox meyillidir.

Tapmacanı açmaq üçün zəngin biliyə, geniş məlumata sahib olmaq tələb olunur. Yer və Göy haqqında, torpağın faunası, florası haqqında zəngin məlumatın olduğu kimi, coğrafi məkanları da yaxşı bilməlisən.

Bir yaradıcılıq prosesi olaraq tapmacalardan sonra bayatı-bağlamalar formalaşıb yaranmışdır. Məzmunu tapmaca, forması bayatı olan bayatı-bağlamalara, ona görə, eyni zamanda tapmaca-bayatı da deyilir.

Tapmacalar sadə, uşaqların yaş və psixologiyalarına uyğun bir tərzdə qurulur. Lakin eyni sözləri bayatı-bağlamalar haqqında demək çətindir. Tapmaca ilə bayatı-bağlamaların özlərinə məxsus bir çox fərqli xüsusiyyətləri vardır.

Bayatı-bağlamalar, hər şeydən əvvəl, bir poetik forma kimi tapmacalardan fərqli olaraq sənətkarlıqla yaradılır. Burada heca vəzninin bütün qayda-qanunlarına tam əməl edilir. Eyni zamanda bayatı-bağlamalar örtülü, mübhəm, təzadlı fikirlərlə dolu olması ilə də seçilir. Burada fikir, mətləb bircə sözlə, sözlə-söz arasında elə gizlənə bilir ki, adam kiçik bir bədii parçanı təhlil edib araşdırmaq üçün bəzən saatlarla, günlərlə vaxt itirməli olur. Sözlərin yaratdığı

rənglər, lövhələr göz qamaşdırır, heyrət doğurur, sadə bir fikir beyində mürəkkəbləşir, əsil mətləb cinaslarda, məcazlarda, bədii boyalar içərisində birdən-birə yoxa çıxır, itir, batır, tapılmaz olur.

Lakin bayatı-bağlamalar nə qədər çətin qurulursa, onu açmağa meyl, maraq, həvəs bir o qədər güclü olur, insan öz zehnində təbiəti, cəmiyyəti, məişəti, bir sözlə onu əhatə edən aləmi araşdırır, qəribə-qəribə nəticələrə gəlir, xəyalı yaxını-uzağı gəzir, nəticəni bildikdə isə xalqın dühasına, müdrikliyinə, bayatı-bağlamaların necə ustalıqla, sənətkarlıqla yaradıldığına heyran qalmaya bilmir.

Çox zaman epitetlər, bədii təsvir vasitələri təbiətdən alınır, lakin təbiətin kiçik zərrəsi belə həmişə cəmiyyətlə, insanla əlaqədə, vəhdətdə verilir.

Sarı Aşıq bu bağlama-bayatıları dərin müşahidələr əsasında yaradır. O, həm də elat həyatına yaxşı bələddir. Yayda camışlar günortadan ta axşam sərinə qədər göldə yatışar. Aşıq da baxır ki, göldə yeddi camış var. Camışlardan üçü göyə çəkilir, yəni göy çəmənə otlamağa gedir, dördü isə göldə qalır. Böyük sənətkarlıq qabiliyyəti olan Sarı Aşıq bu mənzərəni seyr edib aşağıdakı bayatı-bağlamanı yaradır:

Mən aşiqəm, bu göldə,
Yeddi can var, bu göldə.
Üçü göyə çəkildi,
Dördü qaldı bu göldə.

Burada çaşqınlıq yaradan:

Yeddi can var, bu göldə,
Üçü göyə çəkildi -

misralarıdır. Aşıq burada da "göy" ifadəsindən istifadə edir.

Elə bil ki, bu bayatı-bağlama yaradıcısı şeir yaratmır, sözlərdən rəng alıb lövhə çəkir, tablo yaradır. Bu cür bayatı-bağlamalar təkcə adamı düşündürmür, eyni zamanda, ona bədii-estetik zövq verir.

Sarı Aşıq məlumdur ki, cinaslı bayatı yaradıcısıdır. Aşığın bayatı-bağlamalara meyli də bununla bağlıdır. Demək olar ki, bayatı bağlamaların əksəriyyəti cinaslar üzərində qurulur, köynəyi mənzum tapmaca olan bayatılar onunla fərqlənir ki, bağlama-bayatılar cinas qafiyələrlə düzəldilir. Mətləb cinasla cinas, sözlə - söz arasında gizlənir, nəticədə bayatı-bağlamanı açan da həmin cinas ifadələr olur.

Can evi tapmaca, köynəyi bayatı olan hər bir tapmacaya bayatı-bağlama demək olmaz. Bayatı-bağlamalar cinaslarla qurulduğu halda, o biri bayatı şəkilli tapmaca sadə bir şəkildə qurulur.

Açsan min-min kitabı,
Tapammazsan cavabı.
Sümükdən şiş görmüşəm,
Qızıldandı kababı.

Açması: qızın sümük barmağı şiş, üzüyü isə qızıldan kabab.

Cinaslarla qurulmuş, epitetlərlə bəzənmiş bir bayatı-bağlamaya diqqət yetirək. Bu bayatı-bağlama cinas üstə qurulmaqla bərabər, nə qədər dərin mənaya malikdir.

Mən aşıq, lala dərdim,
Gül dərdim, lala dərdim,
Güneydə qarı gördüm,
Quzeydə Lala dərdim.

Əslində burada söhbət qardan, lalədən, güneydən, quzeydən getmir, bu təbiət təsvirləri, epitetlər, bədii boyalar, bəlkə də fikri, xəyalı yayındırmağa xidmət edir. Aşıq bu bayatısında sadəcə olaraq gözəlin sifətini təsvir edir. Aşıq

güney tərəfdən baxanda gözəlin sifətinə qar kimi bir ağlıq, quzey tərəfdən baxanda isə lalə kimi bir qırmızılıq görmüşdür.

Ona görə də aşıq gözəlin ağlı – qırmızılı sifətini böyük heyranlıqla təsvir və tərənnüm edir.

Güneydə qarı gördüm,
Quzeydə Lala dərdim,

Eyni zamanda Lalə adlı qız guneydə çəmənlikdə dayanmışdır.

Çoxsaylı bayatılarımız içərisində ictimai məzmuna malik, məzaclarla bəzənmiş elə nümunələrə rast gəlirik ki, onlar da çox zaman bayatı-bağlamaların yerində işlənir. Xalq ədəbiyyatının özünəməxsus xüsusiyyətlərinə, bədii təsvir vasitələrinə bələd olmadan, bəlkə də həmin bayatıların məzmununu açmaq, mənasını başa düşmək çətin olar. Məsələn:

Bir at mindim başı yox,
Bir çay keçdim daşı yox.
Burda bir igid ölmüş,
Yanında yoldaşı yox.

Bayatının məzmununu və mənasını aydınlaşdırmaq və açmaq üçün hər iki misraya xüsusi diqqət yetirək.

Bir at mindim başı yox – məlumdur ki, qəm atının nə başı olur, nə də cilovu, sən onu tutub bir səmtə çəksən. Bir sözlə, o başsız at kimi insan xəyal onu istədiyi səmtə aparır.

Bir çay keçdim, daşı yox – çay neçə dağdan, dərədən keçir, gah daşır, gah coşur, özü ilə daş – çınqıl gətirir, çaylaş yaradır. Ona görə də çayın dibində çaylaq daşları olur. Amma qanlı müharibələrdə insan qanı çay əmələ gətirsə də, çay özü ilə daş gətirmir, çaylaq yaranmır, belə çaylarda əsasən daş olmur. Bu bayatının yaradıcısı da məhz belə bir dəhşətli səhnə ilə qarşılaşmış, daşsız çaya rast gəlmişdir. "Daşsız çay"ın sahilində onun diqqətini daha çox yanında yoldaşı olmayan, ölmüş bir igid cəlb etmişdir.

Burda bir igid ölmüş,
Yanında yoldaşı yox.

Əlbəttə, bu izah və təhlil müstəqil məna daşıyır, məcazi mənada isə göz yaşı da daşsız çaya bənzədilə bilər.

Bu cür tarixi mahiyyət daşıyan bayatılar çoxvariantlı olurlar.

Məsələn:

Bir at mindim başı yox,
Üzük tapdım, qaşı yox.
Burda bir gözəl ölmüş,
Yanında qardaşı yox.

Deyərlər ki, qızın üzüyünün qaşı qardaşıdır. Deməli qız ölərkən qardaşı yanında olmamışdır.

Bəzən belə iddia edirlər ki, qoşa bayatılardan, təkrar olan bayatılardan birini seçib çap etmək lazımdır. Bu doğru deyildir. Variant bayatıların özündə elə mətləblər, elə ifadələr gizlənib qalır ki, onlar böyük tarixi mənanı özlərində yaşadırlar.

Buna bir misal:

Mən aşiqəm, tamam qan,
Oxu dərsin tamam qan.
Bir dərya var lil axır,
Biri də var, tamam qan.

Mətləb son iki misradadır. Burada da qanlı müharibələrdən söhbət gedir. Bildirilir ki, ölkənin biri yavaş-yavaş qarışıb, suyu bulanmağa, lil axmağa başlayıb, o birində isə "tamam qandır", qan tökülür, dəryası-dənizi qana boyanıb.

Eyni ölkənin daxilində gedən faciələr, qan-qadalar isə başqa şəkildə mənalandırılır.

Mən aşiqəm, tamam qan,
Oxu dərsin tamam qan,
Bir dərya var lil axır,
Bir cülgəsi tamam qan.

"Cülgə" Kür kimi çaylardan kiçik su arxı çəkib, cülgələr-gölməçələr, su tutarlar yaradılır ki, onunla bostan suvarılsın, qoyun-quzu içsin. İri çayların onlara xatası dəyməsin. Burada "cülgə" başqa mənada, bütöv ölkənin bir parçası kimi verilmişdir.

Bu bayatının bir əhəmiyyəti də "cülgə" ifadəsini yaşatmasıdır.

Tükənməz folklor xəzinəmizdə bu cür əvəzsiz incilər, böyük sənətkarlıqla yaradılmış bayatılar, bayatı-bağlamalar çoxdur.

Bütün bunlar Sarı Aşıq və Xəstə Qasım kimi nəhəng sənətkarların yaradıcılıqları üçün bir qaynaq, qida mənbəyi olmuşdur. Xalq ədəbiyyatından bəhrələnən sənətkarların yaradıcılığı ölməzlik qazanır, zaman-zaman yaşayır və sahibinə böyük şöhrət qazandırır.

Sarı Aşığın bir sıra bağlama-bayatıları son zamanlara qədər bağlı qalmışdır. Onlardan biri aşağıdakıdır.

Aşıq deyər, bir ata,
Bir oğuldu, bir ata,
Yeddi dəvə, qırx qatır,
Yüklənibdir bir ata.

Necə yəni? Yeddi dəvəni, qırx qatırı bir ata necə yükləmək olar? Bu ki, ağlasığmazdır.

Açması belədir: Yeddi dəvənin yununu qırxıb, onları bir-birinə qatıb bir ata yükləmək olar.

Sarı Aşıq başqa bir bayatı bağlamasında deyir:

Mən aşiq, bay keçdi,
Kasıbı bay keçdi.
Altı camış, yüz keçi,
Qucağında çay keçdi.

Bu sadə bir şəkildə qurulmuş bayatı-bağlamadır. Altı camış dedikdə, say etibarı ilə altı camış nəzərdə tutulmur. Yüz keçi dedikdə yüz keçi nəzərdə tutulmur. Yüz keçi üz keçi mənasındadır. Sarı Aşıq bildirir ki, məstimin altı camış dərin-

sindən, üzü keçi dərisindəndir. Məstimi soyunub qucağıma aldım və çayı keçdim. Əlbəttə ki, altı camışı, yüz keçini qucağına alıb heç kəs çaydan keçə bilməz. Bu bayatı bağlamalar əsrlərdən bəri bağlı qalmışdı. Yüzlərlə sənətkar düşünmüş, daşınmış, lakin onu yozub bir yana çıxara bilməmişdir. Bu dərin qıfılbəndi, bağlama-bayatını Aşıq Şəmşir ona görə açа bilmişdir ki, o, Sarı Aşıq yaradıcılığına dərindən bələd idi. Aşıq Şəmşir də Sarı Aşıq kimi məişət müşahidələrinə meydan verir, müəyyən nişanələrlə qapısı bağlı sənət sarayına girə bilirdi.[1]

Sarı Aşığın indiyə qədər açılmamış daha bir bağlama bayatısına diqqət yetirək. Sarı Aşıq bu bağlama bayatıları müşahidələrinə, el məişətinə, bələdçiliyinə güvənərək yaradır.

Ağ at biyan içində,
Quyruğu qan içində,
Getdim atı tutmağa,
Qaldım biyan içində.

Biyan otundan şəkər-qənd-şirniyyat hazırlanır. Goranın Xanqərvəndə dönən yolunun ətrafında biyan otu bitir. Biyan otları rəngarəng

[1] Sədnik Paşa Pirsultanlı. "Aşıq Şəmşirin poetik aləminə səyahət". Bakı, "Təknur", 2008. səh. 168-169

çiçəklər açsa da, daha çox ağ çiçək açırlar. Biyan otunun bitkisi böyüdükdə hər biri bir ağ ata bənzəyir. Həmin bu ağ atın quyruğu hesab edilən biyanın iç özəyi qan rəngində, qan damarı rəngində olur. Hər hansı bir adam biyan otu olan sahəyə girdikdə onun içərisindən çətinliklə çıxır. Sarı Aşıq buradakı hər misranı müəmmalı şəkildə, məcazi şəkildə dilə gətirir. Əgər biyan otu haqqında məlumatın olmasa bu bağlama-bayatını açmaq müşkül olardı.

Sarı Aşıq elə bağlama bayatılar yaradır ki, o eyni zamanda möhtəşəm həyat nümunəsi kimi, həm də yanıltmac kimi səslənir. Onları söz-söz duya-duya, düşünə-düşünə təhlil etmədən bayatı-bağlamanın məzmununu açmaq olmur. Məsələn:

Mən aşiq, qardaşıdı,
Dağlardan qar daşıdı,
Anamın oğluydu,
Atamla qar daşıdı.

Bayatı-bağlamanın daxilinə, məzmununa daxil olduqda mətləb daha asan, anlaşıqlı başa düşülür. Birinci misrada qardaşımaqdan söhbət gedir. İkinci misrada həqiqətən dağdan qar daşınır, üçüncü misrada qız bildirir ki, bu oğlan anamın oğludur, dördüncü misrada (mətləbi

çaşdıran misrada) bildirilir ki, qardaşımla qardaş yox, atamla qardaşım dağlardan qar daşıdı. Bağlama-bayatıda əsl açar olan fikri və ifadəni axtarıb tapmaq, ondan sonra bağlı qapıya açar salmaq, qıfılı açmaq olar.

Sarı Aşıq həyat hadisələrinə, epizodik məsələlərə böyük həssaslıqla yanaşır, onlardan nəticə çıxararaq öz müşahidəsinə arxalanaraq yeni, orijinal və bənzərsiz bayatı-bağlamalar yaradır. Az qala onun bu səpkili bayatı-bağlamaları yanıltmaclar qədər insanı çaşdıracaq bir mövqe qazanır.

Bir kişiyə müəyyən günahına görə cəza verirlər ki, ona qırx gün yemək verilməsin, ac qalsın, yaşasa yaşasın, ölsə ölsün kişinin qızı atasını yaşatmaq üçün onun yanına gəlir, ölməməsi üçün qırx gün atasına döşündən süd verir. Bu hekayəti eşidən Sarı Aşıq onun əsasında bir bayatı bağlama yaradır.

Mən aşiqəm, yazıyam,
Baharıyam, yazıyam,
Atam mənim oğlumdur,
Bəs mən kimin qızıyam?

Buna bənzər bir bayatı-bağlama da yaradır.

Mən aşiqə ustakar,
Nədən olsun usta kar?

Süd istər, məmə istər,
Şagird laldı, usta kar.

Bu bayatı-bağlama ana ilə uşaq haqqında düzəlmiş bayatı-bağlamadır.

Uşaq acıb məmə istəyir, süd istəyir. Lakin şəyird olan körpənin dili açılmamışdır. O, laldır. Usta olan ana isə yatdığı üçün kardır.

Sarı Aşığın başqa bir bayatı-bağlaması belədir:

Mən aşiq ikisinə,
İki dil, iki sinə,
Bir ağacda beş alma,
Gün düşüb ikisinə.[1]

Bu bayatı-bağlamada müəmma: bir ağacda beş alma, gün düşüb ikisinə. Burada beş alma "pənc -əl-əla" yəni beş rükət namazdan söhbət açılır. Bu namazlardan birinci sübh namazının üstə gün düşmür, ikinci yəni ikisinin – zöhr və əsr namazlarının üstünə gün düşür, məğrib və işa namazlarının üstünə isə gün düşmür. Gecəyarı namaza kim gecikirsə ona qəza namazı deyirlər.

[1] Sarı Aşıq. Şeirlər. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı 1966. səh. 41

Həmin mətləbi Aşıq Ələsgər özünün "Yüküm" adlı divanisində geniş şərh etmişdir.

Ələstüdən bəli deyən əcəb xoş haldı yüküm,
Beş gözəlin aşiqiyəm vəmi camaldı yüküm,
Həm dərindi, həm dayazdı, həm acıdı, həm şirin,
Zəhmətdə səbr, halal ləzzətdə baldı yüküm.[1]

Sarı Aşıq özgə bir bayatı-bağlamasını belə tamamlayır.

Mən aşıq qan ayağı,
Qan əli, qan ayağı,
Aşiq bir hikmət görüb,
Üç başı, on ayağı.[2]

Burada müəmma son beytdədir. Aşıq bir hikmət görüb, Üç başı on ayağı. Üç başı dedikdə sağınçının, inəyin və buzovun başları nəzərdə tutulur. On ayaqdan ikisi sağınçının, dördü inəyin, dördü də buzovundur.

Sarı Aşığın bağlama bayatıları özünə məxsus şəkildə qurulmuş və yaddaşlara həkk olunmuşdur. Onun bayatı-bağlamaları çox orijinal və özünə-

[1] Aşıq Ələsgər. (toplayanı İslam Ələsgərov). Bakı. "Elm" Nəşriyyatı. 1973. səh. 295
[2] Sarı Aşıq. Şeirlər. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı 1966.səh. 37

məxsus keyfiyyətlərə malikdir. O, bu bağlama bayatıları dərin müşahidələrinin köməyi ilə yaradır. O dağları, çayları seyr edə-edə onun faunasına və florasına diqqət yetirə-yetirə onlara uyğun, onların təbiətinə uyğun nümunələr yaradır. Ona görə də onun bayatı bağlamaları da cinaslı bayatıları kimi bir sənət incisi kimi dərhal seçilir.

Bəzən Sarı Aşıq yaratdığı bağlama bayatının özü ilə yanaşı cavabını da şeirlə dilə gətirir. Güman edir ki, onun müəmma-bayatı şəklində düzdüyü şeir parçasını hər kəs onun kimi müşahidə edə billməz. Özü üçün sirli-sehrli bağlama bayatıları yaradarkən onun cavabını da söyləməyi zəruri hesab edir.

Mən aşiq bar verər,
Dən-dən nübar verər,
O hansı ağacdır?
Çiçəkləməz bar verər.

Bioloqlar yaxşı bilir ki, dağdağan ağacı çiçəkləmir, ona görə ki, onda daxilən mayalanma gedir. Sarı Aşıq yaratdığı bağlamasının cavabını belə dilə gətirir.

Mən aşıq bar verər,
Dən-dən nübar verər,
Dağdağan ağacıdır,

Çiçəkləməz bar verər.

Başqa bir nümunə:

Zülfün ucu gümüşdür,
Sal boynuna ilişdir.
Bar verir, kölgə salmır,
Aşıq, o nə yemişdi?

Cavab:

Zülfün ucu ilandır,
Sal boynuma dolandır.
Bar verir, kölgə salmır,
Bilin, o dombalandır.

Sarı Aşığın elə bağlama-bayatıları vardır ki, bəzən onun ümumi bayatı-bağlamalar içərisində izini itirirlər. Məsələn:

Aşıq, beldən yuxarı,
Şana teldən yuxarı.
Aşıq bir hikmət görüb,
Dizi beldən yuxarı.

Hamının müşahidə etdiyi bu canlını heç kəs nəzmə çəkib, özünəməxsus bir şəkildə bayatıya gətirməmiş, ondan bayatı-bağlama düzəltməmiş-

dir. Gör Sarı Aşıq həmin bağlama-bayatının cavabını nə ustalıqla dilə gətirir:

Aşıq beldən yuxarı,
Şana teldən yuxarı.
Buynuzlu çəyirtkədir,
Dizi beldən yuxarı.

Buna bənzər canlılar haqqında daha maraqlı bayatı-bağlamaya nail olur. Məsələn:

Göydə uçur quş deyil,
Buynuzu var qoç deyil.
Üçcə günlük ömrü var,
O sən bilən quş deyil.

Bu cür mürəkkəb və cavabı çətin tapılan bağlama bayatıları Sarı Aşıq özü öz bayatıları ilə açır.

Qanadı var quş deyil,
Buynuzu var qoç deyil.
Üçcə günlük ömrü var,
Kəpənəkdir, quş deyil.

Yəqin ki, Sarı Aşığın bağlama bayatıları bu deyilənlərlə tamamlanmır. Axtarışlar nəticəsində Sarı Aşığın bağlama-bayatıları toplanılacaq, təh-

lilə cəlb ediləcək və onların haqqında daha dəyərli sözlər deyiləcəkdir.

Sarı Aşıq bağlama-bayatıları elə asan yaratmır ki, hər yetən bağlama-bayatı açan olsun. Böyük sənətkarlar gələcəkdə dərin qıfılbəndlər sarayı qurmaq üçün onun bağlamalarının qızıl kərpiclərindən istifadə etsinlər. Xəstə Qasım, Aşıq Ələsgər kimi böyük sənətkarlar dönə-dönə öz sələfləri olan Sarı Aşığa əhsən desinlər.

NƏTİCƏ

ХВЫЫ ясрин нящянэ сималарындан олан Сары Ашыьын байаты йарадыжылыьы Азярбайжан ядябиййатында хцсуси бир мярщяля тяшкил едир. Сары Ашыгдан яввял вя сонра йашайыб-йаратмыш байаты йарадыжыларындан щеч бири онун фятщ етдийи зирвяйя йцксяля билмямишдир.

Сары Ашыьын Азярбайжан ядябиййатындакы рол вя мювгейини йалныз ХЫХ яср ашыг шеиримизин эюркямли нцмайяндяси Ашыг Ялясэярля мцгайися етмяк мцмкцндцр. Сары Ашыг Азярбайжан ядябиййатынын байаты, Ашыг Ялясэяр ися гошма ганадыдыр.

Sarı Aşıq yığcam, lakonik tərzdə, dörd misralı bayatıda öz hissini, məhəbbətini, istəyini elə sənətkarlıqla çatdıra bilir, onu elə poetik dillə, canlı, yaddaqalan bədii lövhələrlə verir ki, istər-istəməz bunlar insanı ilhamlandırır, vəcdə gətirir, mənən zənginləşdirib düşündürür, təsirləndirir; yatmış fikir və duyğularını yenidən oyadır. Bax, budur, Sarı Aşıq poeziyasının cazibə qüvvəsi, fərdi məziyyəti.[1]

Sarı Aşığın bayatıları folklor xəzinəsində öz qiymətini saxlayan ləl daşlarıdır.

[1] S.Paşayev. "Azərbaycan folkloru və Aşıq yaradıcılığı". Azərbaycan Dövlət Universiteti nəşriyyatı. Bakı, 1989. səh. 49

Xalq şeiri xalq düzgülərində, bayatılarında dilimizin qızıl külcəsini təşkil etsə də, Sarı Aşığın zərgər dəqiqliyi ilə işlənmiş cinaslı baytıları və bağlama bayatıları əvəzedilməz sənət incilərıdir.[1] Çünki o nümunələr Sarı Aşığın istedadının gücü ilə yaranmışdır. Bunlar memarlıq abidələridir. Sarı Aşığın insanı heyrətdə buraxan sənət dünyasıdır.

Sarı Aşıq özü də bunu qabaqcadan bilirdi ki, "eşqdən Cünun olan"lar öz dərdlərinin təsəllisini onda tapacaqlar. Çünki o, dərdimməndir, dərdi də dərdimməndə deyirlər:

Mən aşıq, dərdi məndə,
De dərdin, dərdimməndə.
Eşqdən cünun olanın,
Tapılar dərdi məndə.

Sarı Aşıq qəlbini dərindən oxuyan, duyan Zakir bir bayatısında belə deyir:

Gəldi bir yaxşı suvar
Gir bağa, yaxşı suvar

[1] Sədnik Paşa Pirsultanlı. "Aşıq Şəmşirin poetik aləminə səyahət". Bakı, "Təknur", 2008. səh. 167

Aləmin malı, mülkü
Aşiqin Yaxşısı var.[1]

Bayatı Zakirə məxsus olsa da burada Sarı Aşığın nəfəsi, amalı yaşayır. "Aləmin malı, mülkü var", amma Sarı Aşığın bircə Yaxşısı. Zakir də bu bayatıda Sarı Aşığın öz eşqindən dönməzliyini, yar yolunda mətinliyini, eyni zamanda sevginin-mənəvi dövlətin maddi sərvətdən "malü-mülk"dən üstünlyünü ifadə etmişdir.

Sarı Aşıqla Yaxşının eşq macərası özündən sonra dillər əzbəri olmuş, çoxları bu eşqə həsəd aparmışlar. Özünün Aşıqla, sevgilisini də Yaxşıyla müqayisə edənlər də olmuşdur. Bunlardan biri də Məhəmməd bəy Aşiqdir:

Qarşıda yaxşı Pəri,
Tərlanın yaxşı pəri.
Mən Aşiqdən yaxşıyam,
Yaxşıdan yaxşı Pəri.[2]

[1] Q.Zakir. Əsərləri. Azərbaycan Elmləri Akademiyası Nəşriyyatı. Bakı 1964. səh. 522

[2] Sədnik Paşayev, "Xalq poeziyasında Sarı Aşıq ənənələri", "Kirovabad kommunisti" qəzeti, 29 sentyabr 1983-cü il. Sədnik Paşa Pirsultanlı, "Azərbaycan folkloruna dair tədqiqlər", Gəncə, "Pirsultan" 2006, səh. 270

Sarı Aşıqdan əvvəl və sonra neçə-neçə istedadlı sənətkar bayatı düzüb-qoşmaq təşəbbüsündə olmuşdur. Lakin onlardan heç biri əvvəllərdə də qeyd etdiyimiz kimi Sarı Aşığın fəth etdiyi zirvəyə yüksələ bilməmişdir. Azərbaycan ədəbiyyatında cilalı, bitkin, bədii cəhətdən mükəmməl bayatı yaratmaq ənənəsi Sarı Aşığın adı ilə bağlı olaraq qalır. Sarı Aşıq məlumdur ki, cinaslı bayatı yaradıcısıdır. Aşığın bayatı-bağlamalara meyli də bununla bağlıdır . Demək olar ki, bayatı – bağlamaların əksəriyəti cinaslar üzərində qurulur. Mətləb cinasla-cinas, sözlə - söz, arasında gizlənir, nəticədə bayatı-bağlamanı açanda həmin cinaslardan biri olur.

Can evi tapmaca, köynəyi bayatı olan hər tapmacaya bayatı-bağlama demək olmaz. Bayatı-bağlamalar cinaslarla qurulduğu halda, o biri bayatışəkilli tapmaca sadə bir şəkildə qurulur.

Sənətkarlıq baxımından tapmacaların yaratdığı bayatılar, ata sözlərinin meydana gətirdiyi bayatılardan daha kamildir. Çünki tapmacalar əsasında yaranan bayatı-bağlamarın cinaslı bayatılar əsasında qurulması nəinki, gələcəkdə qoşmaqıfılbəndlər üçün, hətta təcnis binalarını qurmaq üçün də bir zəmin, bir başlanğıc olmuşdur.

Sarı Aşığın bayatılarının ürəklərdə yurd–yuva bağlamasının səbəblərindən biri, bəlkə də

başlıcası, həmin bayatıların böyük məharətlə, sənətkarlıqla yardılması və oradakı səmimi və ülvi hisslərin yüksək və bədii bir dillə tərənnüm olunmasıdır.

Xalq ədəbiyyatı qaynaqlarından, xalq həyatı, xalq dili və bədii təfəkküründən mayalanıb infişaf etdiyini Sarı Aşığın yaradıcılıq üslubu da sübut edir: o, bizim xalq ədəbiyyatının güclü qanadı olan bayatılar şəklində yazıb-yaratmışdır. Əsərlərində məhəbbətin tərənnümü böyük yer tutmaqla bərabər, ictimai-siyasi motivlər də güclüdür. Onun şeirlərinin lirik qəhrəmanı xəyali hurilər, qılmanlar deyil, gözəl, təmiz, real insandır. O, gözəli konkret insani cizgilərlə təsvir edir.

Yazılı və şifahi poeziyanın başqa janrları ilə müqayisədə demək olar ki, bayatı xalq məişətinə daha çox yaxındır. Bir qədər obrazlı desək, bayatı xalqın bağrının başındadır. Məhz buna görə də belə kütləvi poeziya xəzinəsi daxilində "əriməmək", fərdi mövqe qazanmaq olduqca çətin bir məsələdir. Sarı Aşıq bu zəngin xəzinə daxilində, nəinki itib-batmamış, hətta o, öz istedadının qüdrəti ilə həmin sahədə xüsusi mövqe qazana bilmişdir. Bax, Sarı Aşığın bir sənətkar kimi böyüklüyü, əzəməti bundadır.

Sarı Aşığın özünəməxsus bir ustalıqla yaratdığı cinas qafiyəli bayatılar yeni təşbihlərlə

elə gözəl bəzənmişdir ki, istər-istəməz insanı təsirsiz buraxmır.

Bizcə bundan sonra sənət meydanına gəlmiş olan Xəstə Qasım bu zəngin xəzinədən istifadə yolu ilə təcnisin binalarını qoymuşdur.

Sarı Aşığın xəmiri bayatı ilə yoğrulub, kündəsi bayatı ilə tutulub. Yeddi hecalı bayatı, dörd misralı, birinci, ikinci və dördüncü misraları həmqafiyə, üçüncü misrası sərbəst olan bu kiçik, lirik şeir parçasında bir tamlıq, bir bitkinlik vardır ki, bu poetik aləmdə bir dünya yaşayır. Hiss və həyəcan, emosiya onun canına hopmuşdur. Bu kiçik poetik şeir forması – bayatı Sarı Aşığın adına yazılmışdır. Sarı Aşıq sanki bu kiçik şeir janrının sahibidir, varisidir. Azərbaycan poeziyasında Sarı Aşıq dedikdə bayatı, bayatı dedikdə Sarı Aşıq yada düşür. Sarı Aşığın qızıl kərpiclərlə tikilmiş, ucaldılmış bayatı sarayı zaman-zaman yaşayacaq, nəsildən-nəsilə, əsrdən-əsrə soraq verəcək. Onu yaddaşlarda yaşadanları, haqqında bircə kəlmə söz deyəni özü ilə bərabər yaşadacaqdır. Mən fəxr ediərm ki, o qızıl saraydakı qızıl kərpiclərdən biri də mənimdir. Üzərinə "Sədnik Paşa Pirsultanlı" yazılmışdır. Mən Sarı Aşığın həyat və yaradıcılığını, bayatılarını toplamışam, incələmişəm, haqqında qəzet və jurnallarda dəyərli məqalələr yazmışam. İndi isə "Azərbaycan poe-

ziyasında Sarı Aşığın bayatı zirvəsi" adlı monoqrafiyasını dünyaya gətirirəm. Bu mənim Azərbaycan folkloruna, klassik sənətkarlara, ölməz Sarı Aşığa hədiyyəmdir. Mən bundan milli qürur duyuram. Yəqin ki, gələcək nəsillər Sarı Aşıq kimi klassiklərlə yanaşı, məni də unutmayacaqlar. Gələcək nəsillər zaman-zaman mənim bu tarixi xidmətlərimi xatırlayacaqlar.

Sədnik Paşa Pirsultanlının (Paşayev Sədnik Xəlil oğlu) qısa tərcümeyi-hal

1. Paşayev Sədnik Xəlil oğlu.

2. Pirsultanlı.

3. Şair.

4. Filologiya elmləri doktoru, professor.

5. 1988-ci ilin dekabr ayının 30-da "Əmək veteranı", 1992-ci ilin may ayının 4-də "Əməkdar Mədəniyyət işçisi", 2007-ci ilin yanvar ayında "Qabaqcıl Təhsil işçisi", Türkiyə Cumhuriyyəti Kültür Bakanlığının "Teşekkür belgesi"-ni almışdır.

6. 20 may 1929-cu il tarixdə Azərbaycan Respublikasının Daşkəsən rayonunun Qazaxyolçular kəndində anadan olub.

7. 1946-cı ildə "Daşkəsən" qəzetində "Zəfər bayramı" adlı ilk şeiri çap olunub.

8. Natamam orta təhsilini Qazaxyolçular kəndində, orta təhsilini Dəstəfur internat məktəbində alıb. 1950-ci ildə H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universitetinin) birinci kursuna qəbul olunub, 1954-cü ildə Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib.

9. 2004-cü ildən AYB-nin üzvüdür.

10. 1955-ci ildən 1970-ci ilə qədər "Yeni Daşkəsən" (Daşkəsən), "Mübariz" (Goranboy) və "Yenilik" (Kəlbəcər) rayon qəzetlərində redaktor, "Kirovabad kommunisti" qəzetinin məsul katibi işləyib. 1970-ci ilin oktyabr ayında H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna müsabiqə yolu ilə müəllim qəbul olunub, baş müəllim, dosent vəzifələrində işləyib. Hal-hazırda Gəncə Dövlət Universitetinin professorudur.

11. 1993-cü ildə Ankarada keçirilən "İpək yolu uluslararası xalq ədəbiyyatı simpoziumu"nda və Nevşehirdə keçirilən "Hacı Veli Bektaşi" törənində məruzəçi kimi çıxış edib.

1955-ci ilin iyul ayından "Bilik" cəmiyyətinin, 1960-ci ilin iyun ayından Jurnalistlər Birliyinin, 1989-cu ilin aprel ayından Aşıqlar Birliyinin, 1998-ci ilin oktyabr ayından Azərbaycan Vətən Müharibəsi Veteranlar Birliyinin (fəxri), 2003-cü ilin iyun ayından Yeni Azərbaycan Partiyasının, 2004-cü ilin aprel ayından Yazıçılar Birliyinin üzvüdür.

12. Almaniya Avropa Türk-İslam Birliyinin dəvəti ilə "Yunis İmrəyə sevgi ili" kutlamalarında məruzəçi kimi çıxış edib, Türkiyədə elmi konfraslarda və simpoziumlarda iştirak edib, İranda yaradıcılıq səfərində olub.

13. 2007-ci ildə “Azərbaycan Respublikasının Əməkdar müəllimi”, 2009-cu ildə “Tərəqqi” medalı ilə təltif olunub.

14. www.sednikpasapirsultanlı.net

15. Kitablarının siyahısı

1. Лалә. Ашыг Бәсти. Ээнслик, Бакı, 1969, 55 səh. 10.000 nüsxə
2. Йашайан әфсанәләр, Ээнслик, Bakı, 1973, 78 səh. 4.000 nüsxə
3. Хәстә Гасым. Ээнслик, Bakı, 1975, səh 64, 2.200 nüsxə
4. Йурдумузун әфсанәләри. Бакı, 1976, 45 səh. 30.000 nüsxə
5. Низами вә фолклор. Билик, Бакı, 1976, 65 səh. 2.500 nüsxə
6. Йанардаь әфсанәләри. Ээнслик, Bakı, 1978, 160 səh. 20.000 nüsxə

7. Азәрбайсан халq йарадысылыьынын inkişafı Билик, Бакı, 1981, 40 səh. 1000 nüsxə
8. Низами və xalq əfsanələri. Эәнслик, Бакı, 1983, 128 səh. 4.000 nüsxə.
9. Байатылар (топлайанлар: В.Вәлийев, С.Пашайев). Йазыçы, Бакı, 1985, 200 səh. 40.000 nüsxə.
10. Azərbaycan əfsanələrinin öyrənilməsi. Билик, Бакı, 1985, 70 səh, 500 nüsxə.
11. Азәрбайсан xalq әфсанәләри, Йазычы, Бакı, 1985, 285 səh, 50.000 nüsxə.
12. Азәрбайсан mifoloji мәтнләри, Елм, Бакı, 1988, (топлайанлар Сәдник Пашайев, Maqбет Әщмәдов, Ариф Рәщимов, Ариф Acalov), 180 səh, 25.000 nüsxə.
13. Азәрбайсан fолклору вә ашыq йарадысылыьы (дәрс vəsaiti), Азәрбайсан

Дöвлəт Университети Нəшрийуаты, Бакı, 1989, 88 səh, 500 nüsxə.

14. Azərbaycan xalq dastanlarının tədrisinə dair (metodik göstəriş), Bakı, 1989, 48 səh, 500 nüsxə.
15. ХЫХ əsr Азəрбайсан ашыq йарадысылыьы (дəрс vəsaiti), Азəрбайсан ДПИ-нин нəшрийуаты, Бакı, 1990, 98 səh, 500 nüsxə.
16. Öz səsim (şeirlər), İdeya nəşriyyatı, Gəncə, 1990, 72 səh, 500 nüsxə.
17. Азəрбайсан xalq сюйləмələри, Йазыçы, Бакı, 1992, 211 səh, 10.000 nüsxə.
18. Пирсултан булаьы (шеирləр), Елм, Бакı, 1994, 110 səh, 1000 nüsxə.
19. Инсичичəуим (шеирləр), Эəнсə, 1996, 100 səh, 500 nüsxə
20. Караьан Усубун lətifələri, Gəncə, 1997, təkrap nəşr. 2000, 2001, 37 səh, 1000 nüsxə.

21. Xalqın söz mirvariləri, Азәрнәшр, 1999, 110 səh, 500 nüsxə.
22. Илащи бир сәс (шеирләр), Әәнсә, 1999, 110 səh, 500 nüsxə.
23. Унну Аьсанын lətifələri, Еколоgiya nəş-riyyatı, Әәнсә, 1999, 60 səh, 500 nüsxə.
24. Ağdabanlı şair Qurban, Әәнслик, Бакı, 2000, 177 səh, 500 nüsxə.
25. Дабровол Qасымын lətifələri, «Әsgəroğlu», Gəncə, 2001, 62 səh, 200 nüsxə.
26. Йәщйа бәй Дилгәмә el-oba məhəbbəti, Бакı, Аәащ 2001, 105 səh, 600 nüsxə.
27. Ашыq Бәсти "Bənövşələr" "Әсәәроьлу", Gəncə, 2001, 80 səh, 300 nüsxə
28. Heca vəznli şeir və mənzum atalar sözləri, Әәнсә, Аәащ, 2001, 110 səh, 200 nüsxə.
29. Heca vəznli tapmacaların inkişafı, Agah nəşriyyatı, Gəncə, 2001, 110 səh, 300 nüsxə.

30. Азәрбайсан епосунуn әфсанә qaynaqları, Азәрнәшр, Бакı, 2002, 102 səh, 500 nüsxə.
31. Qaraxanlı Künə Dəmirin lətifələri, Gəncə, «Pirsultan», 2002, 51 səh, 200 nüsxə.
32. Qамышлы шаир Рцстәм, «Laçın qaya, çal yadıma düşəndə», Gəncə, «Pirsultan», 2002, 80 səh, 300 nüsxə
33. Yuxular олмасайды, «Pirsultan», 2002, 60 səh, 150 nüsxə.
34. Озан-Ашыq сәнәтинин nəzəri məsələləri, Бакı, Озан, 2002, 208 səh, 250 nüsxə.
35. Озан-Ашыq йарадысылыьына dair арашдırмалар, Ы силd, Ээнсә, «Pirsultan», 2002, 203 səh, 150 nüsxə.
36. Озан-Ашыq йарадысылыьына dair арашdырмалар, ЫЫ силd, Ээнсә, «Pirsultan», 2002, 230 səh, 100 nüsxə.

37. Бир ичим нəьмə (шеирляр), Эəнсə, «Pirsultan», 2003, 70 səh, 100 nüsxə.
38. Щеса вəзнли байаты və qошма möcüzələri, Gəncə, «Pirsultan», 2003, 80 səh, 100 nüsxə.
39. Эəнсəбасар lətifələri, Эəнсə, «Agah», 2005, 201 səh, 300 nüsxə.
40. Бир чичək дə Вətəндir, Эəнсə, 2005, 127 səh, 200 nüsxə.
41. Əsatirlər, əfsanələр, rəvayətlər (S.P.Pirsultanlı və digər müəlliflər), "Şərq-Qərb", 2005, 304 səh, 2500 nüsxə.
42. Мир Сəфəр Баьыров йаддашларда, «Pirsultan», Gəncə, 2005, 80 səh, 100 nüsxə.
43. Елдəн-обадан eşitdiklərim, Gəncə, «Agah», 2005, 170 səh, 200 nüsxə.
44. Yıldızdağdan əsən külək, Gəncə, 2006, 100 səh, 200 nüsxə.

45. Azərbaycan folkloruna dair tədqiqlər, Gəncə, 2006, 402 səh, 200 nüsxə.

46. Publisistika və folklor, Gəncə, 2007, 330 səh, 200 nüsxə.

47. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi, Elm, 2007, 310 səh, 500 nüsxə.

48. Pirsultan Pinarı (Şeirlər), «Pirsultan», Gəncə, 2007, 666 səh, 100 nüsxə.

49. Azerbaycan efsane ve rivayetlerinin Edebi Yapıtlarımızda Karşılaştırmalı Açıklaması Bakü 2008, Bilim yayınevi, 310 sayfa, 500 adet

50. Saz nəfəsli şeirlərim, «Pirsultan», Gəncə, 2008, 121 səh, 200 nüsxə.

51. Aşıq Şəmşirin poetik aləminə səyahət, "Təknur", Bakı, 2008, 295 səh, 500 nüsxə.

52. Azərbaycan türklərinin xalq əfsanələri, Azərnəşr, Bakı, 2009, 427 səh, 200 nüsxə.

53. “Novruz-Qəndab” və digər məhəbbət dastanlarının müqayisəli tədqiqi, Azərnəşr, Bakı, 2009 112 səh, 200 nüsxə.

54. “Aşıq Tifil Əsəd və Aşıq Ağbulaqlı Aqil”, “Pirsultan”, Gəncə, 2009 114 səh, 100 nüsxə.

55. “Qızıl beşik və Ana maral”, “Pirsultan”, Gəncə, 2010, 126 səh, 100 nüsxə.

56. “Lilpar bulağı”, “Pirsultan”, Gəncə, 2010, 120 səh, 100 nüsxə.

57. Altın Beşik ve Anne Geğik. Gence 2010, Pirsultan yayınevi, 130 sayfa, 100 adet

58. Azərbaycan aşıq yaradıcılığına dair araşdırmalar, “Azərnəşr”, Bakı, 2010, 260 səh, 200 nüsxə.

59. Azərbaycan folklorunda gülüş”, Gəncə Dövlət Universiteti nəşriyyatı, 2010, 130 səh. 200 nüsxə

60. “Azərbaycan yazarlar aləmində əfsanə incilər”. Bakı, 2010, 360 səh. 200 nüsxə

61 “Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi”, Bakı. “Azərnəşr”, 2010, 156 səh, 200 nüsxə

62. Azerbaycan Türklerinin Halk Efsaneleri, Bakü, 2010, Azerneşr yayınevi, 427 sayfa, 200 adet

63. “Xəstə Qasımın ədəbi irsinin tədqiqi”, Bakı, “Azərnəşr”, 2011, 250 səh. 200 nüsxə

64. “XXI əsrdə Azərbaycan folklorundan incələmələr”. Gəncə Dövlət Universiteti nəşriyyatı, 2010, 130 səh. 200 nüsxə

65. “Molla Nəsrəddin varislərinin lətifələri”, Gəncə Dövlət Universiteti nəşriyyatı, 2011, 120 səh. 200 nüsxə

66. Lilpar Çeşmesi (Türk dilinde) Gence 2011, Pirsultan yayınevi, 157 sayfa, 100 adet

67. “Poeziyamızda Sarı Aşığın bayatı zirvəsi” Azərnəşr, 2011, 142 səh. 100 nüsxə

Sədnik Paşa Pirsultanlıya həsr olunmuş kitablar

1. Ələsgər Əlioğlu. "Sədnik Paşanın yaradıcılılıq yolu". "Səda", Bakı, 1996. 52 səh. 100 nüsxə
2. Elm və sənət adamları Sədnik Paşa Pirsultanlı haqqında. I hissə "Pirsultan", Gəncə, 2003, 410 səh. 300 nüsxə
3. Seyfəddin Rzasoy. "Azərbaycan folklorşünaslıq tarixi və Sədnik Paşa Pirsultanlı". "Nurlan", Bakı, 2008. 212 səh. 500 nüsxə
4. Qasım Qırxqızlı. "Sədnik Paşa Pirsultanlının bədii yaradıcılığı". "Pirsultan", Gəncə, 2010, 130 səh, 100 nüsxə
5. Şakir Albalıyev. "Sədnik Paşa Pirsultanlı poeziyasına bir baxış". "Pirsultan", Gəncə, 2011, 80 səh, 100 nüsxə
6. Köçəri Cəfərli. "Sədnik Paşa Pirsultanlının təqdimatında: Melodik musiqi çeşməsi və Aşıq Şəmşir". Bakı, "Azərnəşr", 2011, 126 səh, 200 nüsxə
7. Elm və sənət adamları Sədnik Paşa Pirsultanlı haqqında. II hissə Gəncə Dövlət Universiteti nəşriyyatı, 2011, 234 səh. 100 nüsxə

MÜNDƏRİCAT

Bayatı yaradıcısı Lələ və Sarı Aşıq 3

I FƏSİL

Sari Aşığın həyatı və yaradıcılıq yolu 27

a) Sarı Aşığın dastan yaradıcılığı 47

II FƏSİL

Sarı Aşığın bayatı zirvəsi 65

a) Sarı Aşığın cinaslı bayatıları 73

b) Sarı Aşığın bağlama bayatıları 102

Nəticə 135

Sədnik Paşa Pirsultanlının
qısa tərcümeyi-halı 142

Sədnik Paşa Pirsultanlı
Filologiya elmləri doktoru, professor

Poeziyamızda Sarı Aşığın bayatı zirvəsi

Operator və dizayner:
Turanə Cəfərzadə

Yığılmağa verilmişdir: 10.08.2011
Çapa imzalanmışdır: 15.09.2011
Qiyməti müqavilə yolu ilə
Tiraj: 100